PULSUZ

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



2023 – 016

AZƏRBAYCAN DİLİ 3 DƏRSLİK 2-ci hissə

# AZƏRBAYCAN DİLİ

## DƏRSLİK

# 3

## II HİSSƏ



 

## AZilRBA YCAN RESPUBLİKASININ DÖVLilT HİMNİ

*Musiqisi Üzeyir Hacıbay inin,*
*s      ri Əhməd Cavadındır.*

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan töıcməyə cümlə qadiriz!**
**Ü çrəngli bayrağınla məsud yaşa!**

**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan ıceçən əsgər,**
**Hərə bir qəhrəman oldu!**

**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məıcan!**

**Namusunu hifz etməyə,**
**Bayrağını yüıcsəltməyə**
**Cümlə gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**



HEYDƏR ƏLİYEV
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

Aygün Qasımova, Farizə Nəbiyeva,
Yeganə Məmmədəliyeva, Həbib Kərimov,
Könül Doxolova, Süleyman Kərimov

Xüsusi məktəblərin

3-cü sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış

# Azərbaycan dili

fənni üzrə

## DƏRSLİK

**II hissə**

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi *chashioglu@gmail.com* və *derslik@edu.gov.az* elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# MÜNDƏRİCAT

## II fəsil

Dəcəl çəpiş ... 6
Tənbəllər ... 8
Arılar ... 10
Məktəbə get, dərs oxu ... 12
Ümumiləşdirici tapşırıqlar ... 14
Saatı oyatma ... 16
Analar ... 18
İşıldaböcək ... 20
Yazı dərsində ... 22
Ümumiləşdirici tapşırıqlar ... 24
Yazda ... 26
Ağacdələn ... 28
Lalə və Leyla ... 30
Nə üçün? ... 32
Ümumiləşdirici tapşırıqlar ... 34
Çörək ... 36
Mənim gücüm ... 38
Tapmacalar ... 40
Aprel ... 42
Ümumiləşdirici tapşırıqlar ... 44
Özün həll et ... 46
Ağaclar ... 48
Gəlin dost olaq ... 50
Zəhmətin barı ... 52
Ümumiləşdirici tapşırıqlar ... 54
Qazlar ... 56
Hamıdan gözəl ... 58
Böyüklərə hörmət et ... 60
Ümumiləşdirici tapşırıqlar ... 62
Atalar sözləri ... 64
Papaq ... 66
Bağban babam ... 68
Ümumiləşdirici tapşırıqlar ... 70
Çəyirdək ... 72
Lovğa dovşan ... 74
Bənövşə ... 76
Ümumiləşdirici tapşırıqlar ... 78
Nəzakətli sözlər ... 80
Qohumlar ... 82
Sevirəm yayı mən ... 84
Ümumiləşdirici tapşırıqlar ... 86
Yayda ... 88
Uşaqların bayramı ... 90
Ümumiləşdirici tapşırıqlar ... 92
Ümumiləşdirici tapşırıqlar ... 96
Ümumiləşdirici tapşırıqlar ... 100
Ümumiləşdirici tapşırıqlar ... 102

# Piktoqram

Danışın, deyin



Yazın, köçürün, altından xətt çəkin



Göstərin



# II FƏSİL

## DƏCƏL ÇƏPİŞ



Gölməçə donmuşdu. Lap güzgüyə oxşayırdı. Bir çəpiş buzun üstünə çıxdı. Əyilib baxanda öz şəklini gördü. Elə bildi, başqa çəpişdir. Buza bir buynuz vurdu. Buz sındı. Çəpiş suya düşdü. Anası gəlib onu sudan çıxartdı.

**1** Suallara cavab verin.



- Hansı heyvanın balasına çəpiş deyirlər?
- Çəpiş hara çıxmışdı?




**2** Şəkillərə baxıb, suallara cavab verin.











| | | | |
|---|---|---|---|
| Qız nə edir? | Çəpiş nə edir? | Ördək nə edir? | Oğlan nə edir? |

### Unutmayın

***Gölməçə*** **–** kiçik göl və ya balaca su yığınıdır.

**3** Şəkildə gördüyünüz heyvanların balalarının adlarını söyləyin.



**4** Cümlələri oxuyun. Mətnə aid olan cümlələri köçürün.

- Bir çəpiş buzun üstünə çıxdı.
- Qışda hava çox soyuq olur.
- Elə bildi başqa çəpişdir.
- Keçinin balasına çəpiş deyirlər.

**5** Şeiri köçürün və saitlərin altından xətt çəkin.
Şeirdə hansı sait işlənməyib?

## Çəpiş

Bu bala keçilərə,
Çəpiş deyirlər, çəpiş.
Çöldə, düzdə yer qalmır,
Ayaqları dəyməmiş.



***Zahid Xəlil***

**6** A, O, U, E, Ə, İ, Ö, Ü saitlərinin hər biri ilə başlayan bir insan adları deyin.

**7** Sözləri oxuyun. Qoşa verilmiş sözlər hansı hərflərə görə fərqlənir?

od-ot
ad-at
yad-yat

dağ-tağ
addım-atdım
adlı-atlı

qoş-quş
söz-süz
duz-düz

**8** Verilmiş hərflərdən istifadə edərək yeni sözlər yaradın.

ş r b z l y q

Qaradağ səhər qaya tala saman
qaymaq barmaq qulaq kürək

# TƏNBƏLLƏR

Uşaqlar bağçada oynayırdılar. Gördülər ki, bağçadakı çiçəklər solub. Başa düşdülər ki, güllərə su vermək lazımdır. Amma heç kəs bu işi görmədi. Hərə bir bəhanə gətirdi.

Bir azdan yağış yağdı. Güllər doyunca su içdilər. Tənbəllər isə başlarını aşağı salıb utandılar.




**1** Suallara cavab verin.



- Uşaqlar harda oynayırdılar?
- Çiçəklərin yarpaqları nə üçün solmuşdur?
- Uşaqlar nə üçün utandılar?
- Onlara nə üçün tənbəl dedilər?




**2** Oxuyun. Hər sözdəki samitləri göstərin.




| | | | | |
|---|---|---|---|---|
| alma | bağ | gül | torpaq | yağış |
| uşaq | dağ | ulduz | hava | budaq |
| ərik | yol | meyvə | səma | çiçək |
| tənbəl | kol | bağça | dəniz | ağac |

**3** Oxuyun. Alt-alta yazılmış sözlər bir-birindən nə ilə fərqlənir?



| | | | |
|---|---|---|---|
| duz | daş | tar | şam |
| Ulduz | yoldaş | qatar | axşam |

**4** Sözləri yazın. Sözlərin birinci hecası neçə səsdən ibarətdir?

ərik ayı ələk ütü inək uşaq oyun arı Əli öküz ana işıq

**5** Oxuyun. Şeirdə mavi rəngdə verilmiş sözləri cümlədə işlədib yazın.

## Alma

Ağ alma, göyçək alma,
Açmısan çiçək alma.
Bağda sənə baxmayıb
Biz necə keçək alma?



***Mirmehdi Seyidzadə***

**6** Nöqtələrin yerinə uyğun sözləri əlavə edib köçürün.

1. Uşaqlar bağçada .......... .
2. Çiçəklərin yarpaqları .......... .
3. Çiçəklər su .......... .

***içdi***
***solmuşdu***
***oynayırdılar***

**7** Mətnin son iki cümləsini hecalara ayıraraq köçürün.

**8** Hecaların hər birinin əvvəlinə bir heca artırmaqla meyvə adları düzəldib yazın.

..ma ..mud ..rik ..las

..cir ..züm ..nan ..ça

# ARILAR



Pətəkdə hamıdan əvvəl oyanan arı vızıldadı:

– Qalxın ayağa, işə getmək vaxtıdır.

Heç kəs onu eşitmədi. Bu zaman arı dedi:

– Bizi çiçəklər səsləyir. Mən onların ətrini duyuram.

Bu zaman bütün arılar oyandılar və birlikdə çəmənə doğru uçdular.

**1** Suallara cavab verin.



- Arı vızıldayıb nə dedi?
- Arı nəyin ətrini duyurdu?
- Arılar hansı tərəfə uçdular?



**2** Hansı sözlər hecalara düzgün ayrılmayıb?



| | | | |
|---|---|---|---|
| ar-ı | pə-tək | z-aman | bi-zi |
| eyn-ək | əv-vəl | çi-çək | uçd-u |
| ağa-c | ay-aq | çəm-ən | birl-ikdə |

**3** Mətndə göy rəngdə verilmiş sözü aşağıdakı sözlərdən hansı ilə əvəz etmək olar?



dinləmədi

oxumadı

aparmadı

yemədi

### Xatırlayın

Nəqli cümlə bitmiş fikri ifadə edir, böyük hərflə başlayır, sonunda nöqtə (.) qoyulur.

### Bunları bilməliyik

Bizi çiçəklər səsləyir. → *Nəqli cümlə*
Arılar hara uçdular? → *Sual cümləsi*

**4** Mətndə neçə nəqli cümlə var?



**5** Cümlələri əvvəlcə nəqli, sonra sual cümləsi kimi oxuyun.



1. Arı çiçəyə qondu
2. Arı pətəkdə yaşayır
3. Bal vitaminli qidadır
4. Bal şirin olur

**6** Şəkillərə baxıb suallara cavab verin.











Arı nə edir? | Qız nə yeyir? | Arı hara qonub? | Arıçı nə kəsir?

Neçə nəqli cümlə işlətdiniz?

**7** Tapmacanın açmasını tapın və köçürün.





Qanadı var uçmağa,
İynəsi var sancmağa.
Sevir işi, zəhməti,
Odur ki, var hörməti.

# MƏKTƏBƏ GET, DƏRS OXU



Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol, dur, get məktəbə,
Sarıl elmə, ədəbə.
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.

***Abdulla Şaiq***

**1** Suallara cavab verin.

- Məktəbə nə üçün gedirik?
- Məktəbdə dərs deyən şəxs necə adlanır?
- Hansı dərsi çox sevirsiniz?




**2** Şəkillər haqqında danışın. Şeirə aid olan şəkilləri göstərin.











**3** Şeirin məzmununu öz fikirlərinizlə izah edin.

**4** Şeirdə mavi rəngdə verilmiş sözü aşağıdakı hansı sözlərlə əvəz etmək olar?

kitab qızım məktəb sinif balam

**5** Oxuyun, sonra kitabı örtün. Neçə söz yadınızda qaldı?

| | | | | |
|---|---|---|---|---|
| məktəb | isti | qələm | səhər | corab |
| şagird | ayaqqabı | elm | yuxu | bostan |
| ağac | kitab | banan | ilan | cavan |
| meşə | qanad | tüstü | kəndir | bilik |

**6** Buraxılmış hərifləri əlavə edərək sözləri köçürün.

| | | | | |
|---|---|---|---|---|
| s..hər | sək..iz | şaf..alı | toq..a | bənö..şə |
| rəq..as | kon..et | hop..an | pəncə..ə | mil..ət |
| doq..uz | pa..aq | çəmən..ik | poz..n | meş.. |

Eyni qoşa samitli sözlərin altından xətt çəkin.

**7** Şəkildə gördüklərinizin adını yazın.



**8** "A" saitini "ə" saiti ilə əvəz edib köçürün.
Sözün mənasının dəyişdiyinə fikir verin.

baba  dara  tala  dana
dam  hakim  şan

**9** Cümlələri sual cümləsi kimi yazın.

1. Məktəbə gedirsən.
2. O, dərslərini yaxşı oxuyur.
3. Lalə səliqəli şagirddir.

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Oxuyun. Saitləri göstərin.

*açar* *ördək* *üzüm* *Anar*

*ipək* *arı* *ordu* *Ucar* *şəlalə*

*eyvan* *əjdaha* *Sahilə* *Bakı* *eynək*

**2** Şəkillərdə gördükləriniz haqqında danışın.



**3** Hecaların sayına görə sözləri qruplaşdırıb yazın.

qar günəş top taxta yasəmən televizor

tarla günəbaxan

dar ayaqqabı qarışqa qarğıdalı ənənə

**4** Rəqəmlərin adlarını yazın.

7 8 9 28 17 50

**5** Hər bir hecanı iki dəfə təkrar etməklə yazın. Alınan sözləri oxuyun.

ba  də  nə  bi

bə  kü  bər  bül

cü  mər  tər  şax  tu

**6** Hansı sözlər sətirdən sətrə düzgün keçirilməyib?

| | | | |
|---|---|---|---|
| *şəhərd-* | *günəba-* | *Tərlan, A-* | *top, saa-* |
| *ə, karand-* | *xan, k-* | *nar, qar-* | *t, də-* |
| *aş, sək-* | *əklik, t-* | *ışqa, Top-* | *və, n-* |
| *kiz* | *op* | *lan* | *ar* |

**7** Oxuyun. Hansı sözlər böyük hərflə yazılır? Həmin sözləri köçürün.

bakı  canavar  lalə  toplan  çiyələk

mala  tural  məstan  ucar  corab  gəncə

su  top  aysu  xəyalə  toqqa  quba

**8** Oxuyun. Doğru olan cümlələri köçürün.

1. Əlifba hərflərin müəyyən qayda ilə düzülüşüdür.
2. Səsi yazırıq və deyirik.
3. Hərfi yazırıq və görürük.
4. Göyqurşağının üç rəngi var.
5. Dilimizdə 9 sait səs var.
6. Samitlər asanlıqla tələffüz olunur.

*Yalnış fikirləri düzəltməyə çalışın.*

**9** Durğu işarələrinin adlarını deyin.

.  ?  !

# SAATI OYATMA



Saat gecə-gündüz işləyirdi. Bir gün saat dayandı. Xanım xala saatı qurmaq istəyəndə gəlincik ilə oynayan Çimnaz dedi:

– Xala, saata dəymə. Qoy yatsın. Axı o, həmişə işləyir.

Xanım xala Çimnaza baxıb:

– Qızım, narahat olma. Saata heçnə olmaz. Saatın gözəlliyi elə onun fasiləsiz işləməsindədir.

**1** Suallara cavab verin.

- Xanım xala nə etmək istəyirdi?
- Çimnaz xalasına nə dedi?
- Xalası Çimnaza nə cavab verdi?




**2** Şəkildəki saatları adlandır.




**3** "Saat" sözü haqqında deyilənlərdən biri yanlışdır.

**a)** Eyni qoşa saitdən ibarətdir.
**b)** İki hecalıdır.
**c)** Üç samit və üç saitdən ibarətdir.

## Bunları bilməliyik

***Sözlərin yazılışı və deyilişi***

Elə sözlər var ki, deyildiyi kimi yazılmır.

***Məsələn:*** *saat* yazılır, *[sa:t]* deyilir, *uşaq* yazılır, *[uşax]* deyilir.

Belə sözlərə yazılışı və tələffüzü fərqlənən sözlər deyilir.

**4** Oxuyun. Hansı sözlər səhv yazılıb?

| | | | |
|---|---|---|---|
| doşan | şir | məktəb | qarpıs |
| saat | pələnk | kitaf | yemiş |
| uşaq | heyvan | qələm | boranı |

**5** Şəkildə gördüyünüz insanların hansı peşə sahibi olduğunu söyləyin və cümlədə işlədin.




**6** Tapmacanı oxuyun. Səhv yazılmış sözü düzəldib köçürün.

Yarıq dodaq, haça qulaq,
Meşədə hamıdan qorxaq.
Qarda olur lap ağappaq,
Sanki qoyub qardan papax



**7** "Çimnaz otaxda oturub sata baxırdı"
cümləsində səhv yazılan sözləri düzəldib köçürün.

# ANALAR



Elə ki balalar gəlir dünyaya,
O gündən hey ölçüb, biçir analar.
Mahnı da oxuyur, şeir də deyir
Bəstəkar analar, şair analar.

* * *

Dözür hər əzaba o bilə-bilə,
Yaşayır, sirrini salmadan dilə.
Vaxt olur, qaldırıb ağını belə
Şərbət əvəzinə içir analar..

***Hüseyn Arif***

**1** Suallara cavab verin.

- Şeirdə kimdən bəhs olunur?
- Siz evdə ananıza kömək edirsinizmi?




**2** Şəkillərə diqqətlə baxın. Hər şəkildə gördüyünüzü bir cümlə ilə ifadə edin.







**3** Sözləri oxuyun. Hər bir sözdə neçə heca olduğunu deyin.

| | | | |
|---|---|---|---|
| ana | dəniz | od | qız |
| oyun | bayram | təbrik | qadın |
| kişi | oğlan | kitab | çanta |
| qapı | dibçək | çiçək | hədiyyə |

## Bunları bilməliyik

### *Sözlərin yazılışı*

| *Doğru* | *Yanlış* |
|---|---|
| dəstə | dəsdə |
| asta | asda |
| istəmək | isdəmək |
| taxta | taxda |
| həftə | həfdə |

**4** Buraxılmış hərfləri əlavə edib köçürün.



Az..rbaycan   mü..arək   ş..nlik

çal..şqan   qəhr..man   b..yram

xo..bəxt   tə..aşir   pend..r

fut..ol   gü..əş   he..van

**5** Səhv yazılmış sözləri seçib düzgün yazın.



ürək   usda   dəsdə

dəftər   taxda   saat   həfdə

**6** Sözləri köçürün. Qarşı-qarşıya yazılmış sözlərin nəyə görə fərqləndiyini deyin.





| | | | |
|---|---|---|---|
| nəzir | nazir | əhəng | ahəng |
| həyat | həyət | hakim | həkim |
| Qədir | Qadir | Kamal | Kamil |
| ələ | əla | şəhid | şahid |

# İŞILDABÖCƏK



İşıldaböcək göydə ulduzları görüb elə bildi ki, yəqin, onlar da işıldaböcəkdilər. Onların yanına qalxmaq istədi. Ağacın gövdəsi ilə yuxarı qalxmağa başladı. Zirvəyə çatıb dayandı. Daha yol yoxdur.

– Eybi yox, – deyə özünü sakitləşdirdi.

– Burda oturub, ağac qalxıb göyə çatana qədər gözləyərəm.

***Tofiq Ağayev***

**1** Suallara cavab verin.

- İşıldaböcək göydə nə gördü?
- Nə etmək istədi?
- İşıldaböcək ulduzların yanına qalxa bildi?



**2** Cümlələri tamamlayaraq oxuyun.

**1.** İşıldaböcək göydə ............... gördü.
**2.** Ağacın gövdəsi ilə ............... qalxmağa başladı.
**3.** ............... çatıb dayandı.
**4.** Daha ............... yoxdur.

**3** Həşəratların adlarını söyləyin.



## Unutmayın

***İşıldaböcək*** **–** gecələr işıq saçan həşəratdır.

## Bunları bilməliyik

### *Sözlərin yazılışı və deyilişi*

Bu sözlərdə yazılan "o" saiti danışıqda "a" kimi tələffüz olunur.

***Məsələn:***

| *Deyilir* | *Yazılır* |
|---|---|
| [pamidor] | pomidor |
| [k'amanda] | komanda |
| [k'albasa] | kolbasa |

Sözdə iki sait yanaşı gələndə də həmin söz deyildiyi kimi yazılmır. Həmin iki saitin arasına tələffüz zamanı bir samit əlavə olunur.

***Məsələn:***

| *Deyilir* | *Yazılır* |
|---|---|
| [Səyidə] | Səidə |
| [zəyif] | zəif |
| [təbiyət] | təbiət |
| [radiyo] | radio |

**4** Hansı sözlərin deyilişi və yazılışı fərqlənmir?

| | | | | | |
|---|---|---|---|---|---|
| kitab | pomidor | çətir | kolbasa | qələm | ümid |
| yemiş | zəif | ayı | qəzet | dovşan | qayçı |
| kələm | müəllim | qazan | gül | adam | kombayn |

**5** "o" saitinin "a" kimi tələffüz olunduğu sözləri yazın.

stol konfet tozsoran somavar kosmos
şokolad komandir at od kosmonavt

**6** Tələffüzündə "y" səsi əlavə olunan sözləri yazın.

radio səadət zəif müraciət sual ulduz

**7** Səhvləri düzəldərək sözləri köçürün.

zopark pamidor kanfet Səydə kansert malicə sat

# YAZI DƏRSİNDƏ




Yazı dərsi idi. Müəllim lövhəyə yazdığı cümləni şagirdlərə göstərib dedi:

– Uşaqlar, lövhədəki cümləni köçürün. Səidə hamıdan əvvəl yazını bitirib müəllimə yaxınlaşdı. Müəllim onun yazısına baxıb asta səslə dedi:

– Səidə, qızım, müəllim sözü necə yazılır?

Səidə cavab verdi:

– Məllim.

Müəllim lövhədəki müəllim sözünü göstərib dedi:

– "Müəllim" deyirik, "müəllim" də yazırıq.

**1** Suallara cavab verin.





- Hansı dərs idi?
- Müəllim şagirdlərə nə dedi?
- Səidə hansı səhvi etmişdi?

**2** Cümlələri öz fikirlərinizlə tamamlayın.



**1.** Mən müəllimimi çox ............... .
**2.** Müəllim ikinci ............... .
**3.** Müəllim öyrədən ............... .

**3** Buraxılmış hərfləri əlavə edərək köçürün.



n..munə g..şə **u** **ü** m..barək g..ya
ş..a ş..ar n..mayiş

## Bunları bilməliyik

**_Sözlərin yazılışı_**
**_"Ə", yoxsa "A"_**

| *Doğru* | *Yanlış* |
|---|---|
| qəhrəman | qəhraman |
| həyəcan | həyacan |
| təbaşir | tabaşir |
| nəqərat | nəqarat |

**4** Oxuyun. Verilmiş cümlələrdə səhv yazılmış sözləri göstərin.



1. Həkim xəstəni malicə etdi.
2. Məllim sinfə daxil oldu.
3. Tural tabaşiri götürdü.

**5** Oxuyun. Yadda saxlayın.



| | | | |
|---|---|---|---|
| ümid | Müşfiq | əkiz | enli |
| bünövrə | müdir | pəncərə | gətir |
| süfrə | Ülvi | məşq | mətbəx |
| küftə | mücrü | pencək | geniş |
| Füzuli | dövrü | pendir | ətir |

**6** Verilmiş sözləri cümlədə işlədib yazın.



qəhrəman    ailə

həyəcan    nəqərat

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Hər bir cümlənin hansı mövzuya aid olduğunu deyin.



| | |
|---|---|
| Saat gecə-gündüz işləyirdi. | İşıldaböcək |
| Mahnı da oxuyur, şeir də deyir. | Yazı dərsində |
| Ağacın gövdəsi ilə yuxarı qalxmağa başladı. | Analar |
| Səidə, qızım, müəllim sözü necə yazılır? | Saatı oyatma |

**2** Deyilişi və yazılışı fərqlənən sözləri seçib yazın.



| | | | | |
|---|---|---|---|---|
| kitab | təbiət | hava | fil | dovşan |
| kombayn | tut | müayinə | Səadət | bayraq |
| vətən | qırmızı | saat | pomidor | ocaq |

**3** Şeiri oxuyun. Eyni cür saitləri olan sözləri seçib yazın.



## Ana

Ana, ana, sən qısaldıb ömrünü,
Mənə daim uzun ömür dilədin.
Əridib öz gözlərinin nurunu,
Mənim ömür yollarıma çilədin.

***Bəxtiyar Vahabzadə***

**4** Hansı sözlərdə *[o]* səsi *[a]* səsi kimi tələffüz olunur?



| | | | | |
|---|---|---|---|---|
| komanda | odun | pomidor | oraq | kosmos |
| ordu | kombayn | oğlan | kompüter | dost |
| qohum | kosmonavt | monitor | stadion | dovşan |

**5** Sözləri köçürün, hər birinin qarşısında tələffüz formasını yazın.



müəllim · kolbasa · ailə · dairə · komandir

**6** Oxuyun. Mətndə üç hecalı sözləri seçib yazın.



İt ağıllı və vəfalı heyvandır. İtlərdən insanlar müxtəlif məqsədlə istifadə edirlər. Ev iti evləri, çoban iti sürünü qoruyur. Polis iti isə oğruları tutmağa kömək edir.





**7** Şəkillərə baxın, gördükləriniz haqqında danışın.







**8** Eyni saitli sözləri seçib köçürün.



*tərəvəz* · *igidlik* · *üzümlük* · *qarışqa*

*durnalar* · *gülçülük* · *tamaşa* · *Qarabağ* · *göyərçin*

*tutuquşu* · *ikinci* · *tikinti* · *qızıl* · *quşçuluq*

# YAZDA



Yaz gələndə günəş çöllərə, meşələrə daha çox şəfəq saçır. Ara verməyən yağışdan sonra havalar get-gedə istiləşir.

Torpaq yavaş-yavaş qızır, hər tərəf yaşıl don geyinir.

İsti ölkələrə köçmüş quşlar qayıdır. Baharın gəlişini xəbər verən qaranquş görünməyə başlayır.

Uşaqlar yaz fəslini çox sevirlər. Onlar çoxlu ağac, gül-çiçək əkirlər. Ağaclardan quş yuvaları və dənliklər asırlar. Yazda milli bayramınız olan Novruz bayramı qeyd olunur.

**1** Suallara cavab verin.







- Yaz fəslində havalar necə olur?
- Yazın gəlişini hansı quş xəbər verir?
- Uşaqlar yazda hansı işləri görürlər?

**2** Hansı şəkillər mətnə aid deyil?





**3** Nöqtələrin yerinə uyğun gələn sözləri seçin və cümlələri tamamlayıb oxuyun.



**1.** Yazda havalar ........... . *(soyuyur, yağış yağır, istiləşir)*
**2.** Ağaclar ........... başlayır. *(tumurcuqlamağa, yarpaqları saralır)*
**3.** Uşaqlar ağaclardan ........... asırlar. *(quş yuvası, çanta)*
**4.** Qaranquş ........... xəbər verir. *(qışdan, yazdan, payızdan)*

## Bunları bilməliyik

***Samitlərin deyilişi və yazılışı***

Sözün sonunda gələn samitlər bəzən deyildiyi kimi yazılmır.

***Məsələn:***

| *Yazılır* | *Deyilir* |
|---|---|
| kənd | k'ənt |
| ocaq | ocax |
| corab | corap |

**4** Oxuyun. Yazılışını və tələffüzünü yadda saxlayın.



| *Yazılır* | *Deyilir* |
|---|---|
| dəftər | dəfdər |
| həftə | həfdə |
| dəstə | dəsdə |
| xəstə | xəsdə |

| *Yazılır* | *Deyilir* |
|---|---|
| zənbil | zəmbil |
| sünbül | sümbül |
| tənbəl | təmbəl |
| şənbə | şəmbə |

**5** Buraxılmış hərfləri əlavə etməklə yazın.



| | | |
|---|---|---|
| əs..ər | ..önül | ..önüllü |
| ..üləş | ..übrə | çələn.. |
| məs..ən | küs..ün | ..öbələk |

**g** yoxsa **k**

**6** Şeiri oxuyun. Mavi rəngdə verilmiş sözləri cümlədə işlədib yazın.




Novruz, Novruz baharı,
Güllər, güllər baharı.
Bağçamızda gül olsun,
Gül olsun, bülbül olsun!

Novruz gəlir, yaz gəlir,
Nəğmə gəlir, saz gəlir.
Bağçalarda gül olsun,
Gül olsun, bülbül olsun.

**7** Sözlər arasındakı uyğunluğu müəyyən edib yazın.



| | | | |
|---|---|---|---|
| *uşaqlar* | *günəş* | *ağaclar* | *havalar* |
| *çiçək açır* | *sevinirlər* | *istiləşir* | *şəfəq saçır* |

# AĞACDƏLƏN



Müəllim şagirdləri meşəyə apardı. O, şagirdlərə palıd, şam, cökə ağaclarını göstərib, onlar haqqında məlumat verməyə başladı. Birdən meşədən tıqqıltı səsi gəldi. Lalə tez səs gələn tərəfə baxıb soruşdu:

– Müəllim, bu nə səsdir?

– Uşaqlar, bu, ağacdələnin səsidir. O, ağac qabığında olan ziyanverici həşəratları dimdiyi ilə tapıb yeyir. Dimdiyini ağaca toxundurduqda belə səs gəlir. Ağacdələnə həm də meşənin həkimi deyirlər.

**1** Suallara cavab verin.



- Müəllim şagirdləri hara apardı?
- Şagirdlərə hansı ağacları göstərdi?
- Meşədən necə səs gəldi?
- Ağacdələnin ikinci adı nədir?



**2** Şəkillərdə hansı ağaclar təsvir olunub?





**3** Yazılışı düzgün olmayan sözləri düzəltməklə sözləri köçürün.



qram rəsim sutul plov qıram istol

sentiyabr oktyabr metir şafdalı rəsm pilan

## Bunları bilməliyik

***Sözlərin deyilişi və yazılışı***

Sözdə samitlər yanaşı gələndə də çox vaxt onlardan biri fərqli tələffüz olunur.

***Məsələn:***

| *Yazılır* | *Deyilir* |
|---|---|
| məqsəd | [mək'sət] |
| şaftalı | [şafdalı] |
| klub | [k'ulub] |

**4** Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| Sərçə | köçəri quşdur |
| Ağacdələn | ətlə qidalanır |
| Qartal | havalar soyuduqda isti ölkələrə köçmür |
| Durna | ağaca ziyan verən həşəratlarla qidalanır |

**5** Sxem üzrə sözlər düzəldib yazın.

po, do, də, bü, ra → st

st → ol, ansiya, adion, udiya, əkan

qr → ip, am, im, up, anit

**6** Hansı sözün sonunda "d" hərfi yazılmalıdır.

alə..

kən..

xala..

**7** Şəkillərə baxın. Şəkildə gördüklərinizi təsvir edin.





# LALƏ VƏ LEYLA



Lalə və Leyla əkiz bacıdılar. Ad günündə valideynləri onlara çoxlu hədiyyə aldı. Babası Laləyə həm də lalə gülü bağışladı.

Leyla dedi:

– Bəs mənə niyə leyla gülü bağışlamırlar?

Anası dedi:

– Qızım, hər adamın adı gül adı olmur.

Lalə isə dedi:

– Bacı, qoy mənim gülüm ikimizin də gülü olsun.

**1** Suallara cavab verin.





- Bacılara nə üçün hədiyyə almışdılar?
- Laləyə gülü kim bağışladı?
- Leyla nə istədi?
- Anası Leylaya nə dedi?
- Lalə Leylaya nə dedi?

**2** Şəkillərdə gördüyünüz güllərdən hansılarının adı insan adı kimi işlədilmir?







**3** Cümlələri mətnə uyğun ardıcıllıqla oxuyun.



Bacı, qoy mənim gülüm ikimizin də gülü olsun.
Lalə və Leyla əkiz bacıdılar.
Ad günündə valideynləri onlara çoxlu hədiyyə aldı.
Babası Laləyə lalə gülü bağışladı.

**4** Bu heyvanlardan hansının adı insan adı kimi də işlədilir?

   

**5** Köçürün. Qarşı-qarşıya yazılmış sözlərdə mənanın dəyişməsinə səbəb olan samitlərin altından xətt çəkin.

çala – cala
addım – atdım
dağ – tağ
dik – tik

yağdı – yaxdı
səki – Zəki
ağır – axır
pas – bas

**6** Nöqtələrin yerinə mötərizədəki samitlərdən uyğun gələnini əlavə edib köçürün.

us..a *(t, d)*
xəs..ə *(d, t)*
əhən.. *(g, k)*
ba..ça *(x, ğ)*
..öbələk *(g, k)*
palı.. *(d, t)*

ağa.. *(c, ç)*
tura.. *(ç, c)*
İs..əndər *(g, k)*
tüfən.. *(g, k)*
a..tobus *(v, f)*
quta.. *(b, p)*

xoru.. *(z, s)*
məs..ən *(k, g)*
uldu.. *(z, s)*
aş..az *(p, b)*
buda.. *(q, x)*

**7** Şeiri oxuyun. Təkrar saitləri olan sözləri cümlədə işlədib yazın.

**Bənövşə**

Martda bənövşə
Taxırlar döşə,
Gülür çəmənlər,
Yaşıl düzənlər.
Deyir qaranquş:
"Bahara alqış!"

***Mirmehdi Seyidzadə***

 

**8** Hansı cümlə mətnin əsas fikrini ifadə edir?

**a)** Ad günündə çoxlu hədiyyələr alınır.
**b)** Hər adamın adı gül adı olmur.
**c)** Bəs mənə niyə leyla gülü bağışlamırlar?

# NƏ ÜÇÜN?

Mən hovuzun yanında
Oynayıram səhərdən
– Düşüb boğularsan ha...
Nənəm söyləyir hərdən.

* * *

Baxıram su içində
Gör nə qədər balıq var.
Bəs nə üçün hovuzda
Boğulmayır balıqlar?

***Şahin Aslanov***

**Unutmayın**

***Misra***
***Bənd***
***Müəllif***

**1** Suallara cavab verin.






- Şeirin müəllifi kimdir?
- Şeirdə neçə misra var?
- Şeirdə neçə bənd var?
- Şeirin sonuncu misrasındakı suala necə cavab verərdin?

**2** Şəkildə gördüyünüz hansı əşyaların adı şeirdə yoxdur?














**3** "Mən hovuzun yanında
Oynayıram səhərdən" misralarını hecaya ayıraraq yazın.



**4** Hansı cümlələrin sonunda durğu işarəsi yanlış qoyulub?




1. Bəs nə üçün hovuzda boğulmayır balıqlar.
2. Ailədə neçə nəfərsiniz?
3. Nə üçün nənə narahat idi.
4. Baxıram su içinə.
5. Hovuzda üzərkən ehtiyyatlı olmaq lazımdır.

**5** Sual işarəsinin yerinə hansı hərfi yazsaq, ləçəklərdə müəyyən mənası olan sözlər yaranar?



B
R
G

izli əlin
?
ülüş örüş

zad rif
?
ğac raba

A
T
M

**6** Hansı nəqliyyat vasitələrinin adının deyilişi ilə yazılışı fərqlidir?











**7** Cümlədəki göy rəngdə olan sözləri verilmiş sözlərin biri ilə əvəz edib yazın.



1. Dənizdə ehtiyatlı olun. *(hovuzda, dərsdə)*
2. Biz zooparkda aslan gördük. *(pələng, dəniz)*
3. Qışda havalar soyuq olur. *(payızda, yayda)*

**8** Hecaların sayına görə sözləri qruplaşdırıb yazın.



| | | | | |
|---|---|---|---|---|
| hovuz | bağ | ələk | səməni | kəlbətin |
| qaranquş | su | nənə | tozsoran | süfrə |
| otaq | göbələk | bənövşə | dağ | ördək |

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Hər bir şəklin hansı mövzuya aid olduğunu söyləyin.






Lalə və Leyla | Yazda | Nə üçün? | Ağacdələn

**2** Hansı fikir yanlışdır?

**a)** "Yarpaq" yazılır, [yarpax] deyilir.
**b)** "Zəmbil" yazılır, [zənbil] deyilir.
**c)** "Kənd" sözünün sonundakı "d" samit tələffüzdə [t] kimi səslənir.

**3** Oxuyun. İlkin və Ləman haqqında öz fikirlərinizi söyləyin.

Dərsin sonuna az qalıb. İlkin vaxtın uzanmasını istəyir. O, bu gün dərsə yaxşı hazırlaşıb. Ləman isə dərsə hazır gəlməyib. O düşünür: "Vaxt necə gec keçir"

**4** Verilmiş cümlədə kimin adı səhv yazılıb?

Dərsdən sonra sinifdə Ülkər müəllim, bir də şagirdlərdən Elnur və Nayilə qaldı.

5 Şəkil adlarının ilk hərflərindən alınan sözü cümlədə işlədib yazın.



1



2



3



4



5



6



7



8



9



10



6 Şeiri davam etdirin.



Mən hovuzun yanında
Oynayıram səhərdən

7 Nöqtələrin yerinə uyğun gələn hərfi əlavə etməklə köçürün.



| | | |
|---|---|---|
| məş..ələ *(q, ğ)* | qız..ın *(q, ğ)* | külə.. *(k, y)* |
| va..on *(ğ, q)* | tax..a *(t, d)* | xəs..ə *(d, t)* |
| va..zal *(q, ğ)* | dəs..ə *(t, d)* | us..a *(d, t)* |

8 Oxuyun. Suallara cavab verin.



## Dovşan və bənövşə



Dovşan qaçdı meşəyə,
Rast gəldi bənövşəyə.
Bənövşə dörd ləçəkdi,
O hər güldən göyçəkdi.

***Məmməd Aslan***



- Şeirdə neçə misra var?
- Şeirin müəllifi kimdir?

# ÇÖRƏK



Ana evdə yox idi. Elşən pendir və çörək götürüb, həyətə getdi. Ətirli çörəkdən bircə dişlək almışdı ki, uşaqlar onu futbol oynamağa çağırdılar. Elşən çörəyi yerə atıb, qaçmaq istəyəndə Mehdi dayı onu saxladı:

– Çörəyi nə üçün atdın, heyfin gəlmədi?

Elşən mızıldandı:

– İştahım yoxdur. Yemək istəmirəm.

– Bu tikədə taxılı əkib yetişdirənlərin, mənim, sənin, atanın, ananın, taxıl yığanların, üyüdənlərin, çörəyi bişirənlərin əməyi var. Çörəyin qədrini bilmək lazımdır.

**1** Suallara cavab verin.



- Elşən pendirlə çörək götürüb hara getdi?
- O, çörəyi nə üçün yerə atdı?
- Mehdi dayı ona nə dedi?




**2** Mətnin sonuncu cümləsini öz fikirlərinizlə ifadə edin.



**3** Hansı fikir doğrudur? Doğru olmayan fikirləri düzəltməyə çalışın.



1. Elşənin anası evdə idi.
2. Elşən pendir və çörək götürüb həyətə getdi.
3. Uşaqlar Elşəni dərs oxumağa çağırdılar.
4. Əli dayı Elşəni saxladı.
5. Elşən Mehdi dayıya belə dedi:
   – Çox yedim, doydum.

## Bunları bilməliyik

Qoşasaitli və ya qoşasamitli sözləri sətirdən sətrə keçirərkən saitlərdən (samitlərdən) biri sətrin axırında saxlamaq, o birini yeni sətrə keçirmək lazımdır.

***Məsələn:*** *sa-at*, *dir-rik*.

**4** Hansı söz sətirdən sətrə düzgün keçirilməyib?



| | | | | |
|---|---|---|---|---|
| *Gül-* | *qənd-* | *camaa-* | *yad-* | *s-* |
| *lər* | *dan* | *t* | *daş* | *aat* |

**5** Şeiri əzbərliyin və məzmunu danışın.



### Çörək

Çörəyəm-şöhrətliyəm,
Dadlıyam, ləzzətliyəm.
Əkinçinin neməti
Zəhməti, məhəbbəti...



Odur ki, el içində
Çoxdur xətrim, hörmətim,
Misilsizdir qiymətim!

***Adil Əbdürrəhmanov***

**6** Buraxılmış hərfləri əlavə etməklə köçürün.



sa..t p..ncərə cama..t p..ncək rəs..am

əziy..ət q..zet rəq..as sab..n toq..a hədiy..ə dir..ik

ayaq..abı arm..d riyaziy..at van..a mil..ət

**7** Şəkillərə baxaraq çörəyi əldə etməyin yolları haqqında danışın.





# MƏNİM GÜCÜM

Bir ev yanırdı. Adamlar yanğını söndürməyə çalışırdılar. Kimisi vedrə ilə su daşıyır, kimisi suyu alovun üstünə atırdı.

Qarğa ağacın budağına qonub yanğına tamaşa edirdi. O, bir qaranquşun yanğına tərəf uçduğunu gördü. Qaranquş dimdiyini açıb alovun üstünə bir damcı su atdı, sonra yenə su gətirməyə gəldi. Bunu görən qarğa soruşdu:



– Sən nə edirsən?

Qaranquş cavab verdi:

– Kömək edirəm.

Qarğa dedi:

– Sənin gətirdiyinin nə xeyri var?

Qaranquş dedi:

– Nə edim, mənim də gücüm buna çatır.

**1** Suallara cavab verin.



- Yanğın harda baş vermişdi?
- Qaranquş nə edirdi?
- Qarğanın qaranquşa verdiyi suala fikrinizi bildirin.



**2** Fikrinizi bir-iki cümlə ilə ifadə edib yazın.



Sizcə  haqlıdır,

yoxsa  ?

## Unutmayın

Hər birimiz yanğına səbəb olan əşyalardan uzaq olmalıyıq.



**3** Oxuyun. Sualların cavablarını yadda saxlayın.

**1.** Yanğın nə zaman baş verir?

- kibriti söndürmədən yerə atanda
- qaz sobasını söndürməyəndə
- elektrik naqillərində çatışmazlıq olanda

**2.** Yanğın baş verərsə, nə etmək lazımdır?

- həmin yerdən uzaqlaşmaq
- bu nömrəyə zəng etmək: 


**4** Cümlələri tamamlayıb köçürün.

- Adamlar ........... söndürməyə çalışırdılar.
- Adamlar vedrə ilə ........... daşıyırdılar.
- ........... dimdiyini açıb alovun üstünə ........... atdı.
- Sənin gətirdiyinin nə ........... var?
- Mənim də ........... buna çatır.

**5** Şəkildə gördüyünüz hadisələr haqqında ardıcıl danışın.



**6** Tərkibində saitləri eyni olan sözlər cərgəsini göstərin.

| | | |
|---|---|---|
| qarğa | qaranquş | papaq |
| üzüm | yanğın | günəş |
| çanta | vedrə | siçan |

# TAPMACALAR

Qanadı var, quş deyil,
Buynuzu var, qoç deyil.





O yanı qaya, bu yanı qaya,
İçində sarı maya.



Bir toyuğum var,
Yer altında yumurtlar.

İynəsi çox, tikəni yox
Əti dərman, özü heyvan.







Günəşlə gülər,
Axşam mürgülər



Bizdə bir kişi var
Xor-xor yatışı var.

İçində qışdır,
Çölündə bahar.

**1** Tapmacaların cavabını tapın.



**1.** Göydə körpü var,
Yeddi rəngi var.

**2.** Saqqalı uzun sallanar,
Dağa-daşa dırmanar.

**3.** Mən gedirəm, o da gedir,
Mən dayanıram, o da dayanır.

**4.** Üstü pulcuq,
İçi qılçıq.









**2** Tapmacanın cavabını tapın. Saiti eyni olan sözləri cümlədə işlədib yazın.



Daşa dönmüş sudur o,
Tapın görək nədir o?







## Bunları bilməliyik

**_Söz və onun mənası_**

Səslər birləşib söz yaradır. Lakin səsdən fərqli olaraq, sözün mənası olur. Sözlər nəyinsə və ya kiminsə adını, əlamətini, sayını və ya hərəkətini bildirir.

**3** Cümlədə "çalışqan" sözünün mənasını izah edin.



Lalə *çalışqan* şagirddir?

**4** Cümlədə nöqtələrin yerinə uyğun olan sözü seçib yazın.



Yay tətilində ........... istirahət edirlər.

şagirdlər — heyvanlar — ustalar

**5** Hansı fikir yanlışdır?




Papaq → başa taxılan geyim növü

Məhsul → torpaqda yetişdirilən taxıl, meyvə, tərəvəz

Çalışqan → heç bir əziyyətə qatlanmayan

**6** Verilmiş sözlər haqqında məlumat yazın.



tənbəl — qəhrəman — Bakı — at — çəkic — bayraq

**7** Cümləni tamamlayın.



........... bostanda bitir.





**8** Tapmacanı tamamlayın.



........... gülər, axşam mürgülər.





# APREL

Gələndə aprel
Bayram edir el.
Sellər qaynaşır,
Çay aşır, daşır.
Uçur buludlar,
Canlanır otlar.

***Mirmehdi Seyidzadə***

| Aylar | |
|---|---|
| Yanvar | İyul |
| Fevral | Avqust |
| Mart | Sentyabr |
| Aprel | Oktyabr |
| May | Noyabr |
| İyun | Dekabr |

**1** Suallara cavab verin.

- Şeirin adı nədir?
- Şeirdə neçə misra var?
- Aprel ayı hansı fəslin ayıdır?
- Şeirin müəllifi kimdir?




**2** Yaz fəslinin aylarını deyin.

Yanvar | Sentyabr | May | Dekabr | Aprel | İyun | Mart

**3** Şeirin üçüncü və dördüncü misralarının ifadə etdiyi mənaları izah edin.

**4** Ayları ardıcıl olaraq yazın.

dekabr   iyun   mart   yanvar
noyabr   sentyabr   may   aprel
fevral   oktyabr   avqust   iyul

**5** Sözləri oxuyun. Cədvələ uyğun qruplaşdırıb yazın.

***Nümunə:***

| meyvə adları | heyvan adları | ay adları |
|---|---|---|
| armud | fil | iyul |

may   at   iyun
dekabr   aprel   kivi   alma
pələng   çiyələk   banan   inək
dəvə
şir   mart   üzüm

## Bunları bilməliyik

***Ad bildirən sözlər***

Elə sözlər var ki, canlı və ya cansız varlıqların adını bildirir.
***Məsələn:*** *kitab* cansız, *müəllim* canlı varlığın adıdır.
Belə sözlər *kim? nə? hara?* suallarından birinə cavab verir.

**6** Verilmiş şəkillərə hansı adları vermək olar?









tərəvəz    meyvə    heyvan

**7** ***Kim?*** sualına cavab verən sözləri seçib yazın.



| | | | | |
|---|---|---|---|---|
| balıq | Lalə | telefon | Tural | müəllim |
| polis | it | eyvan | həkim | oğlan |
| gül | qadın | çoban | konfet | bıçaq |
| usta | Aygün | Taleh | şəkil | sarı |

**8** Yasəmən sözü hansı cümlədə ***nə?*** sualına cavab verir?



**1.** Yasəmən gözəl qızdır.    **2.** Anam bağçadan yasəmən dərdi.

**9** ***Hara?*** sualına cavab verən cərgəni köçürün.



**a)** bulaq, dəniz, dağ
**b)** Zəngilan, Xaçmaz, Qəbələ
**c)** Arif, Gülnar, Sabir

**10** Mətni oxuyun. Altından xətt çəkilmiş sözləri köçürün, qarşısından sualını yazın.





Dilşad atası ilə Şuşaya getdi. Şuşanın gözəlliyi Dilşadı valeh etdi. Atası Dilşada xarıbülbül gülü dərdi. Dilşad çox sevindi.

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Hər bir fikrin hansı mövzuya aid olduğunu söyləyin.

Çörəyin qədrini bilmək lazımdır.

Nə edim, mənimdə gücüm buna çatır.

Gələndə aprel,
Bayram edir el.

**2** Mətni oxuyun və sözləri hecalara ayıraraq köçürün.

Samir küləyin necə yarandığını bilmirdi. Nənəsi dedi:

– Diqqət etmisənmi, qarlı havada evə girərkən qapının açılması ilə soyuq hava sürətlə içəri dolur. Soyuq hava aşağıdan içəri dolarkən isti hava yuxarı qalxır və bayıra çıxır. Çünki isti hava yüngüldür. Külək də belə yaranır. Yerin hər tərəfini Günəş eyni dərəcədə qızdırmır. Ona görə də hava bəzi yerlərdə soyuq, bəzi yerlərdə isti olur.

**3** Uyğunluğu müəyyən edin.






həkim    yanğınsöndürən    bənna    dərzi

**4** Oxuyun. Əvvəlcə qohumluq, sonra peşə və sənət bildirən sözləri yazın.

bibi    fəhlə    xala    nəvə    həkim
sürücü    nənə    satıcı    baba    dayı    müəllim
toxucu    şair    rəssam    əmi    mühəndis

**5** Oxuyun. Mavi rəngdə verilmiş sözlər hansı suala cavab verir?



1. Hava getdikcə qaralırdı.
2. Əsgər müharibədən danışdı.
3. Polad Həşimov milli qəhrəmandır.

**6** Tapmacanı oxuyun. Cavabını müəyyən edin.





Su içində üzərəm,
Sudan çıxsam ölərəm.
Əynimdə pullu paltar,
Məni torla tutarlar.



**7** Əvvəlcə ***kim?***, sonra ***nə?*** sualına cavab verən sözləri yazın.



| | | | | |
|---|---|---|---|---|
| şagird | kitab | gəlincik | növbətçi | top |
| qələm | məktəbli | tülkü | bitki | meşəbəyi |
| ceyran | ot | Ramil | Lalə | alim |
| həkim | ovçu | it | su | Lalə |

**8** Sualların cavablarını yazın.



- Avqust hansı fəslin ayıdır?
- Yanğın zamanı hansı nömrəyə zəng etmək lazımdır?
- Çörək hansı bitki növündən hazırlanır?
- Qış fəslinin ayları hansılardır?

**9** Oxuyun. Hər bir sətri ümumi bir adla ifadə edin.



1. moruq, çiyələk, qarağat, böyürtkən;
2. xiyar, kələm, soğan, sarımsaq, turp;
3. bənövşə, lalə, zanbaq, yasəmən;
4. bibi, xala, əmi, dayı;
5. avtobus, metro, gəmi, təyyarə, qatar.

# ÖZÜN HƏLL ET



Nailə xəstələnmişdi. O, üç gün idi ki, məktəbə getmirdi. Sağalıb məktəbə gedəndə müəllim evdə məsələ həll etməyi tapşırdı. Həmin dərs keçiləndə Nailə dərsdə olmamışdı. Ona görə də məsələni həll edə bilmədi. O, sinifdə yaxın rəfiqəsi olan Fidangilə getdi. Onun digər sinif yoldaşı Fuad da orda idi. Nailə Fidana dedi:

– Fidan, məsələni həll edə bilmirəm, mənə kömək edərsən?

Fidan dəftəri ona verib dedi:

– Mən həll etmişəm, al, köçür.

Fuad dedi:

– Nailə, köçürmə, başa düşməzsən. Əyləş, mən səni başa salım, özün həll et.

**1** Suallara cavab verin.






- Nailə nə üçün dərsə getməmişdi?
- O, məsələni nə üçün həll edə bilmədi?
- Nailə nə etdi?
- Uşaqlardan hansı düzgün hərəkət etdi, Fidan yoxsa Fuad?

**2** Hadisələrin ardıcıllığını müəyyənləşdirin.



- Nailə sağalıb məktəbə getdi.
- Nailə Fidangilə getdi.
- Müəllim evdə məsələ həll etməyi tapşırdı.
- Nailə məsələni həll edə bilmədi.
- Fuad dedi: "Nailə, köçürmə, başa düşməzsən".
- Fidan dedi: "Mən həll etmişəm, al köçür".

**3** Mətndə ***kim?*** sualına cavab verən sözləri göstərin.

**4** Sözləri qarşısından suallarını yazaraq köçürün.

***Nümunə:*** *- qələm - nə?*

qayçı    Bakı    Aytən    üzüm
karandaş    ev    Lalə    çarpayı
Tural    Azərbaycan    Şuşa    həkim    Quba
Türkiyə    müəllim    dibçək    gül

**5** Hansı şəkil mətnə aiddir?









**6** Mətnin sonuncu cümləsi haqqında fikirlərinizi söyləyin.

**7** Cümlələri tamamlayıb köçürün.

- Nailə dərsə getməmişdi, çünki ........... .
- Nailə məsələni həll edə bilmədi, çünki ........... .
- Fuad Nailəyə dəftərdən köçürmə dedi, çünki ........... .

**8** Buraxılmış hərfləri əlavə edib köçürün.

k..tab    x..stə    mə..təb    tə..bəl    mü..ahidə
ç..lçıraq    tap..aca    t..başir    to..qa
n..lbəki    t..til    d..st    st..kan    mü..aribə

# AĞACLAR



Bizim məktəbin yuxarı sinif şagirdləri parkda çoxlu ağac əkmişdilər. Şəhla müəllimə bizi həmin parka apardı. Park çox geniş və gözəl görünürdü. Parkda o qədər ağac var idi ki, saymaqla bitməzdi. Müəllim dedi:

– Baxın uşaqlar, bu yaşıllığı onuncu və on birinci sinif şagirdləri salıblar. Biz bu ağaclar sayəsində oksigen qəbul edə bilirik. Təbiətimizi qorumaq, ağaclara qulluq etmək hamımızın borcudur. Biz müəllimimizlə bərabər ağacları suladıq.

**1** Suallara cavab verin.

- Yuxarı sinif şagirdləri nə etmişdilər?
- Şəhla müəllimə şagirdlərə nə dedi?
- Siz neçə ağac əkmisiniz?



**2** "Təbiətimizi qorumaq, ağaclara qulluq etmək hamımızın borcudur" cümləsinin məzmununu izah edin.

**3** Təbiəti qorumaq üçün siz nə edirsiniz?

**1.** Ağacları qırmaq olmaz.
**2.** Ətraf mühiti çirkləndirmək olmaz.

**4** Şəkildə gördükləriniz haqqında danışın.






## Bunları bilməliyik

***-lar, -lər* çoxluq bildirən şəkilçidir**

Ad bildirən sözlərin sonuna artırılan *-lar*, *-lər* şəkilçisi, həmin varlığın çox olduğunu bildirir.

***Məsələn:***

| *Bir ədəd* | *Çoxlu* |
|---|---|
| kitab | kitablar |
| şagird | şagirdlər |

Çoxluq bildirən bu *-lar*, *-lər* şəkilçisi bəzi sözlərdə fərqli deyilir.

***Məsələn:***

| *Yazılır* | *Deyilir* |
|---|---|
| qızlar | [qızdar] |
| quşlar | [quşdar] |

Elə sözlər var ki, onlar *-lar*, *-lər* şəkilçisi qəbul etmədən çoxluq bildirir.

**5** Verilmiş sözlərə ***-lar***, ***-lər*** şəkilçilərini artırıb yazın.



*uşaq* *gül* *top* *ağac*

*lalə* *ana* *bayraq* *ata* *qaşıq*

*bina* *silah* *eynək* *qızıl* *şar*

**6** Nöqtələrin yerinə ***-lar***, ***-lər*** şəkilçilərini artırmaqla cümlələri tamamlayıb köçürün.



**1.** Şagird.. ağac əkdi.. .
**2.** Biz ağac..ı suladıq.
**3.** Müəllim uşaq..ı parka apardı.
**4.** Ağac..a qulluq etmək lazımdır.

**7** Mətndəki ***-lar***, ***-lər*** şəkilçisi olan sözləri seçib yazın.



**8** Çoxluq bildirən sözləri seçin.



alma
çəkic
xurma

lalə
dovşan
meşə

xalq
camaat
sürü

# GƏLİN DOST OLAQ



Küsəyən bir qurbağa var idi. O, göldə də, sahildə də tək gəzib-dolaşır, başqa qurbağalarla dostluq etmirdi.

Günlərin bir günü həmin qurbağa sahildə tək oturmuşdu. Birdən bir tülkünün ona tərəf gəldiyini gördü. Bərk qorxan qurbağa cəld gölə tullandı. Üzüb o biri qurbağaların yanına getdi və dedi:

– Sizinlə dost olmaq istəyirəm. Tək yaşamaq çox çətindir və qorxuludur.

Sahildəki qurbağalar böyük sevgi ilə onu qəbul etdilər.

**1** Suallara cavab verin.



- Nağıl hansı cümlə ilə başlayır?
- Qurbağa hansı hadisə ilə qarşılaşdı?
- O nə üçün qurbağalarla dost oldu?




**2** Şəkillərin nağıla uyğun ardıcıllığını göstərin.



**1.** b, a, ç, c  **2.** c, ç, b, a  **3.** ç, b, a, c

a


b


c


ç


**3** Mətndəki "Tək yaşamaq çətindir və qorxuludur" fikrinə münasibətinizi bildirin.



**4** Sualların cavabını yazın.



- Dostluq nədir?
- Dostunuz varmı?
- Dostuna necə kömək edirsən?

## Bunları bilməliyik

### *Əlamət bildirən sözlər*

Ətrafımızdakı canlı və cansız varlıqların hər birinin öz adı olduğu kimi onların öz əlamətləri də var. Əlamət bildirən sözlər *necə? nə cür? hansı?* suallarına cavab verir.

***Məsələn:***

*Mən şirin alma yedim. (necə alma? - şirin alma)*

*Əlaçı şagird lövhəyə çıxdı. ( hansı şagird? - əlaçı şagird)*

**5** Əlamət bildirən sözləri seçib yazın.



| | | | |
|---|---|---|---|
| qara | çörək | böyük | qurbağa |
| mehriban | tülkü | gölməçə | güləruz |
| pəncərə | enli | yarpaq | turş |
| şokolad | şirin | qızıl | acı |

**6** Hansı cümlədə əlamət bildirən söz var? Həmin cümləni köçürün.



**1.** Yaxşı dost dar gündə tanınar.
**2.** Səlim özünə ayaqqabı aldı.
**3.** Əsgərlər döyüşə hazır idi.

**7** Nöqtələrin yerinə hansı əlamət bildirən söz yazılmalıdır.



**1.** Zürafə fildən ... . *(hündürdür, alçaqdır)*
**2.** Dovşan tısbağadan ... qaçır. *(sürətli, asta)*
**3.** Qırmızı papaq ... yolla, canavar ... yolla getdi. *(uzun, qısa), (enli, dar)*

**8** Sözlər arasındakı uyğunluğu müəyyən edin.



| | | | |
|---|---|---|---|
| yaşıl | çiyələk | əlaçı | xörək |
| qırmızı | səma | güclü | ordu |
| mavi | alça | dadlı | şagird |

# ZƏHMƏTİN BARI

Bağban ağac əkəndə
Olur meyvəsi, barı.
Zəhmət çəkib, çiçəkdən
Bal hazırlayır arı.

* * *

Əkinçi yer şumlayıb,
Tarlaya dən səpərsə,
Bircə ovuc buğdadan
Məhsul alar bir kisə.

***Mirmehdi Seyidzadə***



**1** Suallara cavab verin.



- Şeirin müəllifi kimdir?
- Bağban nə iş görür?
- Arı nə hazırlayır?
- Əkinçi nə iş görür?




**2** Şəkilləri şeirin bəndlərinə uyğunlaşdırın.









**3** Peşələrin adlarını söyləyin. İşləri haqqında məlumat verin.











**4** Uyğunluğu müəyyən edin.

əkinçi | arı | bağban

Zəhmət çəkib çiçəkdən bal hazırlayır | Ağac əkəndə, olur meyvəsi, barı | Bircə ovuc buğdadan Məhsul alar bir kisə

**5** Aşagıdakı misralarda hansı sözlər şeirdəki kimi deyil?

Bağban ağac əkəndə
Olur heyvası, narı

İki ovuc buğdadan
Məhsul alar min kisə

**6** Nöqtələrin yerinə əşyanın necəliyini bildirən sözlər əlavə edib yazın.

... → yemiş ← ...

... → yol ← ...

... → kitab ← ...

... → limon ← ...

**7** Şəkildə gördükləriniz haqqında hekayə qurub nəql edin.





**8** Köçürün. Əlamət bildirən sözlərin altından qırmızı xətt, ad bildirən sözlərin altından yaşıl xətt çəkin.

- Uca binalar arasından hündür ağaclar görünürdü.
- Yaxşı uşaq ata-anaya sevinc gətirir.
- Çalışqan şagird sinfin fəxridir.

**9** Söz sırasını davam etdirin.

**zəhmət, bar, əziyyət, bəhrə, ...**

əmək | dəniz | kitab

**10** Şeirdə göy rəngdə verilən sözlər hansı suala cavab verirlər?

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Mövzular bizə nə öyrətdi?



Bir işi, tapşırığı özün öyrənib başa düşəndən sonra onu həll etmək sənə asan olacaq. Həmişə sənin yadında qalacaq.

Təbiəti qorumaq hər birimizin borcudur.

Gəlin dost olaq | Ağaclar | Özün həll et | Zəhmətin barı

Zəhmət çəkərsən, sonra barın yeyərsən.

Həyatda dostsuz yaşamaq çətindir.

**2** Oxuyun. Mətndən ***-lar***, ***-lər*** şəkilçiləri olan sözləri seçib yazın.





Yaz gəlmişdi. Zoğal, alça, ərik, şaftalı çiçək açdı. Dağlarda, meşələrdə bənövşə, novruzgülü göründü. Qaranquşlar köçüb gəldi. Arılar çiçəkdən çiçəyə uçub qonurdular. Hamıdan çox uşaqlar sevinirdi. Bağlardan, bağçalardan onların şən səsləri eşidilirdi.

**3** Verilmiş sözləri oxuyun.



adam – adamlar
şagird – şagirdlər
kitab – kitablar
dəftər – dəftərlər

ev – evlər
çay – çaylar
çörək – çörəklər
bağ – bağlar

**4** Uyğunluğu müəyyən edərək yazın.



***Nümunə:*** *traktor – traktorçu*

pambıq    qapı    pambıqçı    üzümçü    traktorçu
traktor    üzüm    qapıçı    gəmi    gəmiçi

**5** Uyğunluq hansı bənddə düzgün verilməyib?



şirin → 

maraqlı → 

arıq → 

turş → 

**6** Verilmiş şəkillər hansı mətnə aiddir?











**7** Cümlələrdə mavi rəngdə verilmiş sözü hansı sözlə əvəz etmək olar?



**1.** Sizinlə dost olmaq istəyirəm. *( mehriban, düşmən)*
**2.** Müəllimimizlə birlikdə ağacları suladıq. *( bərabər, qayğısı)*
**3.** Əyləş mən səni başa salım. *( öyrədim, yazım)*

**8** Şəkilləri adlandırın və cümlədə işlədin.



camaat → sürü → əhali → ______ → meyvə → ______



güllər



dovşanlar



karvan



tərəvəz

**9** Şeiri oxuyun. Məzmunu haqqında fikirlərinizi bildirin.



**Gənc bağbanlar**

Yorulmadan çalışaq,
Hər zəhmətə alışaq.
Çoxlu ağac əkək biz,
Qayğısını çəkək biz.

Zəhmətimiz verər bar,
Ucalar göy ağaclar
Yaşıl olar şən Bakı,
Hər yanı gülşən Bakı.

***Tofiq Mütəllibov***

# QAZLAR



Aysu göydə uçan qazları görüb atasından soruşdu:

– Ata, bizim qazlar da belə uça bilər?

– Yox, qızım, ev qazları uça bilmir.

– Niyə?

– Ona görə ki, tənbəlləşiblər. Quşlar bir yerdən başqa yerə yem dalınca və soyuqdan qorunmaq üçün uçurlar. Ev quşlarının belə qayğısı yoxdur. Onları sahibləri yemləyir və hin düzəldirlər ki, soyuqdan qoruna bilsinlər. Ona görə də bu quşlar bir çox bacarıqlarını itiriblər.

**1** Suallara cavab verin.






- Aysu göydə nə gördü?
- Ona maraqlı olan nə idi?
- Aysugilin qazları nə üçün uça bilmirdi?

**2** Mətnin sonuncu cümləsi aşağıdakı fikirlərdən hansına uyğun gəlir?



**a)** Ev quşları zəif olur.
**b)** Çöl quşları yem üçün uçub gedir.
**c)** Həyatda güclü olmaq üçün əziyyət çəkmək lazımdır.

**3** Şəkildəki quşların adını söyləyin. Hansı ev quşu deyil?





## Bunları bilməliyik

***Hərəkət bildirən sözlər***

Ətrafımızda baş verən hərəkətləri hərəkət bildirən sözlər vasitəsilə ifadə edirik. Hərəkət keçmişdə, indi və gələcəkdə baş verə bilər. Hərəkət bildirən sözlər *nə etdi? nə edir? nə edəcək?* suallarına cavab verir.

***Məsələn:*** *Mən dünən alma yedim. (Nə etdim? – yedim. )*

Bu cümlədə hərəkət keçmişdə baş verib.

**4** Şeiri köçürün. Hərəkət bildirən sözlərin altından xətt çəkin.

### Cücələr

Cücələrim birər-birər,
Suyu görüb yavuq gələr,
İçər, gedər eşələnər.
Yeyər, içər cücələrim,
Doyub qaçar cücələrim.



***Abbas Səhhət***

**5** Nöqtələrin yerinə hərəkət bildirən sözlər əlavə edərək köçürün.

- Ovçunu görən ceyran ....... .
- Köçəri quşlar uçub ....... .
- Adil taxtanı mişarla ....... .

**6** Hərəkət bildirən sözləri seçib yazın.

| | | | | | |
|---|---|---|---|---|---|
| yatdı | su | qırmızı | kəsdi | at | dağ |
| uçdu | Lalə | hoppandı | hava | üzdü | gəldi |
| dəniz | üzdü | oxudu | çaldı | pələng | qatar |

**7** Şəkillərə uyğun sözlərdən istifadə etməklə cümlələri tamamlayın.

- Lalə ... dərdi.
- Dərzi ... tikdi.
- Tural ... oxudu.
- Rüfət ... doğradı.
- Nənəm ... bişirdi.
- Bağban ... əkdi.



# HAMIDAN GÖZƏL



Balaca Solmaz anası ilə parka gəzməyə getdi. Parkda insanlar çox idi. Solmaz birdən anasını itirdi. O ağlamağa başladı. O yana, bu yana qaçıb "ana, ana" deyirdi. Bir qoca kişi ona yaxınlaşıb soruşdu:

– Gözəl bala, niyə ağlayırsan?

Solmaz dedi:

– Anamı itirmişəm.

– Sənin anan necə qadındır?

– Siz mənim anamı tanımırsınız? Mənim anam hamıdan gözəldir.

**1** Suallara cavab verin.



- Solmaz anası ilə hara getmişdi?
- Solmaz nə üçün anasını itirdi?
- Ona kim kömək etmək istədi?

**2** Fikirlərdən hansı mətnə uyğun deyil?

**a)** Solmaz anasını çox sevir.
**b)** Anasını itirən Solmaz çox qorxdu.
**c)** Parkda insan az idi.
**ç)** Qoca kişi ona kömək etmək istədi.

**3** Mətnin sonuncu cümləsini öz fikirlərinizlə ifadə edin.

**4** Cümlələri tamamlayıb oxuyun.

**1.** Solmaz anası ilə parka .... .
**2.** Solmaz birdən anasını ... .
**3.** O ... başladı.
**4.** Qoca kişi ona ... .
**5.** Sən mənim anamı ... ?

## Bunları bilməliyik

### *Hərəkət bildirən sözlər*

Hərəkətin indi, hal-hazırda icra olunduğunu bildirən sözlər *nə edir?* sualına cavab verir.

***Məsələn:*** *Mən alma yeyirəm. (Nə edirəm? – yeyirəm)*

Burada hərəkət hal-hazırda, indi baş verir.

**5** Nöqtələrin yerinə ***nə edir?*** sualına cavab verən söz əlavə etməklə köçürün.

Qaranquş ... .
Müğənni ... .
Dərzi ... .

İnək ... .
İlan ... .
Balıq ... .

**6** Oxuyun. ***Nə edir?*** sualına cavab verən sözləri köçürün.

**Bahar gəlir**

Axar sular aşır, daşır,
Dağ, dərələr yaşıllaşır.
Sevincimiz həddən aşır,
Sevimli, xoş bahar gəlir.

Dağda çoban çalır tütək,
Ot otlayır qoyun, inək.
Əsir sərin-sərin külək,
Sevimli xoş bahar gəlir.

***Zeynal Cabbarzadə***

**7** Əvvəlcə ***nə etdi?***, sonra ***nə edir?*** sualına cavab verən sözləri seçib yazın.

çaldı əkir daşdı soruşdu güləşir
uçdu sərdi bilir əridir
girdi atdı süzür getdi gəlir

**8** Verilmiş şəklə əsasən hansı hərəkət bildirən söz işlənməlidir?

**a)** Solmaz ağlayır.
**b)** Solmaz ağlayacaq.
**c)** Solmaz ağladı.



**9** Hansı şəklin adı həm ad, həm də hərəkət bildirir?







# BÖYÜKLƏRƏ HÖRMƏT ET

Sən can yandırır anana,
Sənə candan yanana.
Sev atanı könüldən,
Qulluq elə ona sən.

* * *

Hörmət etmək nənənə,
Qoy bir borc olsun sənə.
Babanın tut sözünü
Sevdir ona özünü.

***Mirvarid Dilbazi***





**1** Suallara cavab verin.

- Şeir neçə bənddir?
- Şeirin müəllifi kimdir?





**2** Şeirin üçüncü və dördüncü misralarını öz sözlərinizlə ifadə edin.

**3** Müəllifin anaya və nənəyə olan hörmətini bir neçə cümlə ilə ifadə edib yazın.

**4** Fikirlərdən hansı şeirə aid deyil.

**1.** Analar övladı üçün can yandırır.
**2.** Atanı sevin və ona qulluq edin.
**3.** Bacılar həmişə mehriban olur.
**4.** Nənəyə hörmət edin.
**5.** Babaların sözünü yerə salmayın.

**5** Ana, ata, nənə, baba sözləri hansı suala cavab verirlər?

## Bunları bilməliyik

### ***Hərəkət bildirən sözlər***

Hərəkətin gələcəkdə baş verəcəyini bildirən sözlər *nə edəcək?* sualına cavab verir.

***Məsələn:*** *Sabah mən alma yeyəcəm. (nə edəcəm? – yeyəcəm.)*

Burda hərəkət gələcəkdə baş verəcək.

**6** Sözlər arasındakı uyğunluğu müəyyən edin.



| Ana | Ata | Nənə | Baba |
|---|---|---|---|
| hörmət et | tut sözünü | sev könüldən | can yandır |

**7** Oxuyun. ***Nə edəcək?*** sualına cavab verən sözləri seçib yazın.



| | | | | |
|---|---|---|---|---|
| yeyəcək | görüşəcək | oxuyur | yazacaq | gələcək |
| gülür | oynayıb | toxuyacaq | qoruyur | qaçır |

**8** Hansı sütunda gələcəkdə baş verəcək hərəkət bildirən sözlər var?



| | | |
|---|---|---|
| yeyəcək | ağlayır | yatdı |
| yuyacaq | darayır | sürdü |
| verəcək | baxır | hördü |

**9** Hansı cümlə düzgün deyil?



1. Sabah biz dərs oxuyuruq.
2. Bu gün kəndə gedirik.
3. Tural top almışdı.

**10** Bir-birinə əks olan sözləri müəyyən edib köçürün.



| | | | |
|---|---|---|---|
| oturmaq | bağlamaq | getmək | pozmaq |
| açmaq | geyinmək | yazmaq | gəlmək |
| soyunmaq | durmaq | ağlamaq | gülmək |

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Şəkillər hansı mətnə aiddir?







**2** Şeiri davam etdir.

Sən can yandır anana,
Sənə candan yanana.

**3** Oxuyun. Altından xətt çəkilmiş sözləri köçürün və hansı suala cavab verdiyini yazın.

Uşaqlar, siz, balaca Tellini tanıyırsınız? Onun gözləri mavi, saçları qızılı rəngdədir. Uclarına qırmızı lent bağlanmış qoşa hörüyü ona xüsusi gözəllik verir. Telli həm də çalışqan şagirddir. O, dərslərini vaxtında oxuyur və yazır. Heç vaxt dərsdən qalmır.

**4** Özünüz haqqında məlumat yazın. Ad, əlamət və hərəkət bildirən sözlərin altından xətt çəkin.

**5** Cümlələri tamamlayın.



Körpə ... .



Uşaqlar ... .



Ata yer ... .



Ana ... .

**6** Oxuyun. Hərəkət bildirən sözləri göstərin.

Sabah → məktəbə gedəcəyik
Sabah → bizə qonaq gələcək
Sabah → həkim xəstəni müayinə edəcək

**7** Hansı sütundakı sözlər həm ad, həm də hərəkət bildirir?

| | | | | |
|---|---|---|---|---|
| çörək | at | Bakı | bulaq | acı |
| ilan | don | tikir | qırmızı | şirin |
| şah | qaz | əkir | soyuq | turş |

**8** Hərəkətin hal-hazırda baş verdiyini ifadə edən sözləri köçürün.

| | | | | | |
|---|---|---|---|---|---|
| yazır | gələcək | oxuyur | kəsəcək | baxacaq | yatdı |
| yazacaq | gülür | ağlayacaq | baxıb | görüb | ütüləyib |

**9** Hansı bənddə şəkildəki heyvana aid xüsusiyyət, hərəkət bildirən söz kimi verilib?

**a)** Velosiped sürür.
**b)** Yaralı əsgər sürünməyə başladı.
**c)** Nənəm yarama dərman sürtdü.



**10** Səhv yazılmış sözü göstərin.

toxuyur   doluyur   qoruyur   sürür

**11** ***Nə etdi? nə edir? nə edəcək?*** suallarına cavab verən sözlər yazın.

# ATALAR SÖZLƏRİ

Atalar sözləri ata-babalarımızın həyat təcrübəsinə əsasən yaranmış və nəsildən-nəsilə ötürülərək bizlərə gəlib çatmışdır. Atalar sözü müdrik fikirlər ifadə edir.

**Vətənlə bağlı atalar sözləri.**

✧ Bu dünyada şirin şey, bir anadır, bir Vətən.
✧ Vətən elin evi, dayağıdır.
✧ Hər kəsə öz vətəni əzizdir.
✧ Bülbül gülü sevər, insan – Vətəni.



**Dostla bağlı atalar sözləri.**

✧ Dost dosta yaman gündə gərəkdir.
✧ Dost yolunda boran olar, qar olar.
✧ Hər şeyin təzəsi, dostun köhnəsi.
✧ Dostsuz insan qanadsız quş kimidir.

**1** Suallara cavab verin.





- Hansı sözlər atalar sözləri adlanır?
- Vətənlə bağlı atalar sözləri hansılardır?
- Dostla bağlı atalar sözlərinə misal göstərin.

**2** ***"İstəyirsən bal-çörək, al əlinə bel-kürək"*** atalar sözü üçün deyilən fikirlərdən hansı doğrudur.





**a)** Yalan danışmaq olmaz.
**b)** Əziyyət çəkərsən, bəhrəsin görərsən.
**c)** Böyük olan yerdə danışma.

**3** Oxuyun. Hərəkət bildirən sözləri seçib yazın.





**a)** Yayda işlə, qışda dişlə.
**b)** Yağışdan çıxdıq, yağmura düşdük.
**c)** Nə tökərsən aşına, o da çıxar qaşığına.

**Unutmayın**

***Müdrik*** – ağıllı, dərin mənalı deməkdir.

**4** Verilmiş atalar sözləri hansı mövzulara aiddir?

1. İş insanın cövhəridir.
2. İnsanı əmək ucaldır.
3. Tənbəllik azar artırır, işləmək canı saf eyləyir.

| dostluq, yoldaşlıq | vətən, el-oba | əmək, zəhmət, sağlamlıq |
|---|---|---|

**5** Verilmiş atalar sözlərini köçürün. Altından xətt çəkilmiş sözlərə sual verin.

1. Ağac əkənin ömrü uzun olar.
2. Ata evin dirəyi, oğul isə onun biləyidir.
3. Qış dumanı qar gətirər, yaz dumanı bar.

**6** Aşağıdakı kimi deyilir. Bəs necə yazılır?

[dəsdə] [usda]

[asda] [isdi]

**Xatırlayın**

Elə sözlər var ki, yazılışı və deyilişi fərqlənir.

**7** Nöqtələrin yerinə uyğun gələn hərfi əlavə etməklə köçürün.

| | | |
|---|---|---|
| çərşə..bə | za..baq | tə..bəl |
| a..bar | gü..bəz | sü..bül |
| bo..ba | tə..bəl | zə..bil |

**8** Atalar sözlərini köçürün. Əlamət bildirən sözlərin altından xətt çəkin.

1. Ac adam acıqlı olar.
2. Bağlı qapıya xəta dəyməz.
3. Doğru söz acı olar.

**9** Cümlələri tamamlayıb yazın.

1. Gözəllik ondur, ... dondur.
2. Qurunun oduna ... da yanar.
3. Yalan ... amma bitməz.

*cücərər*
*doqquzu*
*yaş*

# PAPAQ



Gülnur həyətdən evə qayıdanda papağı başında yox idi. Anası çox hirsləndi:

– Bir papağı da saxlaya bilmədin. Bilirsən, o papağın qiyməti neçəyədir? Hardan biləsən?!

Gülnur sakitcə qulaq asırdı. Bir azdan səs-küy yatdı. Gülnur yenidən həyətə getdi. Ananın qulağına səs gəldi. Baxıb gördü ki, Gülnurdu. Evdə baş verənləri həyətdə uşaqlara danışır. Yenidən hirslənib həyətə endi ki, Gülnuru danlasın. Nə görsə, yaxşıdı? Gülnurun bahalı papağının içində iki balaca pişik bir-birinə sıxılıb yatıb.

Hər şey aydın idi. Gülnurun anası gülümsəyərək onlara yaxınlaşdı:

– Afərin, qızım, onlara qayğı göstərmək lazım idi, – deyərək evə qayıtdı.

***Zahid Xəlil***

**1** Suallara cavab verin.





- Gülnurun anası nə üçün hirsləndi?
- Gülnur papağını itirmişdi?
- Siz də Gülnur kimi edərdiniz?

  Fikirlərinizi geniş izah edin.

**2** Aşağıdakı sözlərdən istifadə edərək fikirlərinizi yazın.



soyuq    üşüdüm    qar    külək

**3** Hansı atalar sözü mətnə aid deyil?

**a)** Özgəyə kömək et ki, sənə də kömək etsinlər.

**b)** Yaxşılıq bilməyən adam adam sayılmaz.

**c)** Yaxşılıq edən yaxşılıq görər.

**ç)** Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı.

**4** Mətndə göy rəngdə olan sözləri qarşısından suallarını yazmaqla köçürün.

**5** Hansı cümlədə hərəkət keçmişdə baş verib? Həmin cümləni köçürün.

**1.** Gülnur papağını itirmişdi.

**2.** Gülnur sakitcə qulaq asırdı.

**3.** Baş verənləri uşaqlara danışır.

**6** Nöqtələrin yerinə əlamət bildirən sözlər əlavə edib köçürün.

| | | | |
|---|---|---|---|
| *... papaq* | *... pişik* | *... gül* | *... qız* |
| *... əsgər* | *... hava* | *... xörək* | *... çay* |

**7** Şəkillərə baxın. Hər bir şəkildə baş verən hadisələr haqqında danışın.



**8** Oxuyun. Əvvəlcə ad, əlamət sonra hərəkət bildirən sözləri köçürün.

## İynə, sap

Bizimçün yaraşıqlı
Paltarı tikən nədir?
Hamı yaxşı bilir ki,
Paltartikən iynədir.



***Mirmehdi Seyidzadə***

# BAĞBAN BABAM

Babam bağbandır,
Hər an bağdadır.
Alma, armudu
Narı bal dadır.

* * *

Onun əlləri
Gül ətirlidir.
O, el içində
Gül xətirlidir....

* * *

Deyir ki, yaşım
Yüzü haqlayır.
Məni zəhmətim
Cavan saxlayır.

***Məmməd Namaz***



**1** Suallara cavab verin.



- Şeirin müəllifi kimdir?
- Şeir neçə benddir?
- Babanı cavan saxlayan nə idi?



**2** Şeirdəki əsas fikri öz sözlərinizlə ifadə edin.



**3** Baba hansı peşənin sahibidir?



a) bağban
b) həkim
c) müəllim

**4** Baba, bağban, zəhmət, cavan, saxlayır sözlərini cümlədə işlədib yazın.



**5** Şeirdə adı çəkilməyən meyvələr hansılardır? Onları tapıb yazın.



**6** Hər bir sözün qarşısında bir neçə əlamət bildirən sözlər yazın.

***Nümunə:*** *alma* – qırmızıdır, şirindir, yumurudur.

qızılgül – ... , ... , ... ,
günəş – ... , ... , ... ,
qənd – ... , ... , ... ,
kitab – ... , ... , ... ,
buz – ... , ... , ... ,
duz – ... , ... , ... .

**7** Şeirdəki ad bildirən sözləri cümlədə işlədib yazın.

***Nümunə:*** Mən babamı sevirəm.

**8** Şeirə əsasən suallara cavab verin.

1. Baba hansı işi görür?
2. Bağdakı alma, armud, nar nə dadı verir?
3. Bağbanın əlləri necədir?
4. "Bağban babam" şeiri kimin dilindən deyilib?

**9** Sözləri köçürün. Qarşısından suallarını yazın.

Nailə –
çanta –
acı –
oxuyur –

Bakı –
odun –
dadlı –
ağlayır –

xətkeş –
Azərbaycan –
ütüləyir –
qəzəbli –

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Atalar sözlərini tamamlayıb yazın.

1. Hər şeyin təzəsi, ... ...
2. Yayda işlə, ... ...
3. Nə tökərsən aşına, ... ... ...
4. Əziyyət çəkərsən, ... ...

**2** Verilmiş sözləri cədvəl üzrə qruplaşdırıb yazın.

*ördək, Adil, cəsur, duzlu, otlayır, keçi, hoppanır, baş, çəhrayı, çevik, siçan, yaxşı, dərir, qaçaq, fikirli, oğlan.*

| ad bildirən | əlamət bildirən | hərəkət bildirən |
|---|---|---|
| | | |

**3** Nöqtələrin yerinə ***necədir?*** sualına cavab verən söz əlavə etməklə oxuyun.

1. Pələng böyükdür, pişik isə ... .
2. Dağ hündürdür, təpə isə ... .
3. Yol enlidir, cığır isə ... .
4. Kitab qalındır, dəftər isə .... .
5. Alça iridir, zoğal isə ... .

**4** Şəkildə gördükləriniz haqqında hekayə qurub nəql edin.



**5** Şeiri davam etdirin.

Babam bağbandır,
Hər an bağdadır.

**Xatırlayın**

K hərfi iki səsi ifadə edir.

k → Kəmalə, kələm
k → konfet, konsert

**6** Sözlərdə "k" hərfinin hansı səsi ifadə etdiyini deyin.

kotan – kotlet
kasa – kosmos
kol – kollektiv
karvan – karusel
koma – komanda
koramal – karton

**7** Oxuyun. Mətnə siz ad verin. Sonluğu necə bitirərdiniz?

Arının anadan olan günü idi. Hamı ona gül hədiyyə verirdi: kəpənək də, may böcəyi də, cırcırama da.

Arı güllərin şirəsini çəkir və sevinirdi.

– Sağ olun! Ləzzətlidir! Ancaq heç bilmirəm, sizi nəyə qonaq eləyim?

**8** Əşyaların adlarındakı birinci hecaları birləşdirərək sözlər düzəldib yazın.









# ÇƏYİRDƏK



Ana aldığı gavalını nahardan sonra uşaqlara vermək istəyirdi. Gavalıları yuyub, boşqabda stolun üstünə qoydu. Vüsal gavalını çox sevirdi. Ona görə də özünü saxlaya bilməyib nahardan əvvəl gavalının birini yedi.

Ana gavalının birinin çatmadığını görüb ataya xəbər verdi.

Ata uşaqlardan soruşdu:

– Uşaqlar, sizlərdən gavalının birinin yeyən olmayıb?

Hamı dedi: – Yox, yeməmişik.

Ata uşaqların cavabından sonra dedi:

– Əlbəttə, yeməyinə biriniz yemisiniz, icazəsiz yemək olmaz. Bu öz yerində. Mənim narahat olduğum odur ki, gavalının çəyirdəyi var. Kim onu udarsa, o çox narahat olar. Çəyirdək onu incidər.

Vüsal bunu eşidib dilləndi:

– Yox, mən çəyirdəyi pəncərədən bayıra atdım.

Hamı güldü. Vüsal səhv etdiyini anlayıb başını aşağı saldı.

**1** Suallara cavab verin.



- Ana gavalını uşaqlara nə vaxt vermək istəyirdi?
- Gavalını hamıdan tez kim yedi?
- Uşaqların cavabı atanı qane etdimi?



**2** Mətndə mavi rəngdə verilmiş sözü cümlədə işlədin. Həmin sözü necə başa düşürsünüz?



**3** Şəkildəki meyvələrdən hansılar çəyirdəksizdir?





**4** Vüsalın yerinə siz olsaydınız, nə edərdiniz? Fikirlərinizi bir neçə cümlə ilə ifadə edin.



**5** Sözlər arasındakı uyğunluğu müəyyən edin.



Ana | Ata | Vüsal

gavalı aldı | icazəsiz gavalı yedi | uşaqlardan soruşdu

**6** Məsləhətləri oxuyun. Hansı məsləhət mətndə yoxdur.



**a)** Vətəni sev və qoru.
**b)** Yalan danışma.
**c)** Önəmli olan səhvini anlamaqdır.
**ç)** İcazəsiz iş görmə.

**7** Mavi rəngdə olan sözləri ***kim? nə? hara?*** sözləri ilə əvəz edib yazın.



**1.** Vüsal gavalı yedi.
**2.** Ana gavalı aldı.
**3.** Atası Vüsalı yanına çağırdı.

**8** Nöqtələrin yerinə hecalar əlavə edərək sözlər düzəldib yazın.



ya → zı, ya → ..., ya → ...

lə → ..., lə → ..., lə → ...

pə → ..., pə → ..., pə → ...

## LOVĞA DOVŞAN




Bir gün meşədə heyvanlar qaçış yarışı keçirmək istədilər. Söhbət edib razılığa gəldilər. İlk yarışa lovğa dovşan və tısbağa çıxmalı oldu. Dovşan bilirdi ki, tısbağa asta yeriyir. Özünün isə sürətli ayaqlarına arxayın idi. Düşünürdü ki, tısbağanı asanlıqla ötüb keçəcək. Ona görə də bir ağacın altında uzanıb dincəlmək istədi. Lovğa dovşan yuxuya getdi. Ayılanda gördü ki, tısbağa artıq finiş xəttinə çatıb. Dovşan etdiyi hərəkətdən çox peşman oldu. Tısbağa isə qalib gəldi.

**1** Suallara cavab verin.

- Heyvanlar nə istəyirdilər?
- Yarışda birinci kimlər iştirak etdi?
- Dovşan nəyə arxayın idi?




**2** Şəkildəki heyvanlardan hansının dovşanla yarışda iştirak etməsini istəyərdiniz? Fikirlərinizi əsaslandırın.



**3** Lovğa dovşan haqqında düşündüklərinizi ifadə edin.

**Unutmayın**

***Lovğa*** – özü haqqında böyük fikirdə olan.

## Bunları bilməliyik

**_Say bildirən sözlər_**

Varlığın nə qədər olduğunu bildirmək üçün ad bildirən sözdən əvvəl say bildirən söz işlənir. Say bildirən sözlər *neçə? neçənci? nə qədər?* sualına cavab verir.

***Məsələn:*** *Kamran beş kitab aldı. (Neçə kitab? – beş kitab)*

**4** Sualların cavablarını yazın.



1. Yarışda neçə heyvan iştirak etdi?
2. Dovşan nə üçün qalib olmadı?
3. Tısbağa necə yeriyirdi?
4. Dovşan harada yatdı?

**5** Oxuyun. ***Neçə?*** sualına cavab verən sözləri seçib yazın.



| | | | | |
|---|---|---|---|---|
| meşə | iki | ayı | dovşan | yarış |
| qalib | məğlub | beş | yüz | az |
| ağac | söhbət | qaçış | çox | on |
| tısbağa | asta | sürətli | əlli | altmış |

**6** Sözlər arasındakı uyğunluğu müəyyən edib köçürün.



| | | | |
|---|---|---|---|
| beş | istiot | çox | bıçaq |
| acı | qələm | iti | yol |
| şirin | alma | qısa | adam |

**7** Suallara cavab verin.



1. Lovğa olma, loğman ol.
2. Lovğada ləyaqət axtarma.
3. Meşə çaqqalsız olmaz.
4. Birinci addımda lovğalanan, ikinci addımda yıxılar.

# BƏNÖVŞƏ

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə;
Qızlar, oğlanlar məni
Dərib taxarlar döşə.



* * *

Bahar oldu açaram,
Qar, borandan qaçaram;
Başqa güllər açanda,
Mən quş olub uçaram.

***Abdulla Şaiq***

**1** Suallara cavab verin.



- Şeirin müəllifi kimdir?
- Şeir neçə misradan ibarətdir?
- Bənövşə gülü hansı fəsildə açır?




**2** Güllərin adını söyləyin.











**3** Şeirdə ***kim?*** sualına cavab verən sözləri göstərin.



**4** Şeirdə altından xətt çəkilmiş sözləri köçürün, qarşısından suallarını yazın.



## Bunları bilməliyik

### *Say bildirən sözlər*

Elə say bildirən sözlər var ki, varlığın sayını dəqiq göstərmir.

***Məsələn:*** *Həyətə xeyli adam toplaşmışdı.*
*Konsertə çoxlu adam gəlmişdi.*

Bu cümlələrdə xeyli, çoxlu sözləri insanların çox olduğunu bildirsə də, konkret sayı göstərmir.

**5** Konkret say bildirməyən sözləri seçib yazın.




üç   beş   çox   az
xeyli   əlli   bir az   lap çox
yüzlərlə   on beş   əlli iki   onlarla

**6** Say bildirən sözləri seçib cümlədə işlədin və yazın.



| | | | | |
|---|---|---|---|---|
| meymun | qida | çox | sağlam | yeddi |
| qarğa | az | qoz | baba | beş |
| xeyli | çoxlu | ləpə | çəyirdək | hava |

**7** Şəkildə gördüklərinizi adlandırın və cümlədə işlədin.









**8** Şəkildə gördüklərinizi bir neçə cümlə ilə ifadə edin.








# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Bu mövzular sizə nəyi öyrətdi?






Böyüklərin icazəsi olmadan bir iş görməmək. Yalan danışmamaq

Lovğalıq insana xeyir verməz

**2** Şeirin əvvəlini söyləyin.

İki parça ləpəni
Üç qarğaya böl indi.

**3** "Hesab" şeirində say bildirən sözləri seçib yazın.

**4** Hər suala cavab verən bir söz yazın. *kim? nə? hara? necə? neçə? nə edir?*

**5** Mətni oxuyun. Sözləri hecalara ayıraraq mətni köçürün.

Su – həyat mənbəyidir. Dünyadakı bütün canlıların orqanizmi sudan ibarətdir. İnsan susuz uzun müddət yaşaya bilməz. Su rəngsiz, dadsız və iysiz mayedir. Suyun 3 halı var: bərk, maye, buxar. Yer kürəsinin 2/3 hissəsi sudan ibarətdir.

**6** Mətndəki say bildirən sözləri göstərin.

**7** Cümlələri tamamlayıb oxuyun. Əlavə etdiyiniz sözlər necə sözlərdir?

**a)** Göyə bax, gör təyyarə necə sürətlə ... .
**b)** Dünən güclü yağış ... .
**c)** Sabah stadionda yarış ... .
**ç)** Vüsal səhvini ... .

**8** Həm ad, həm də hərəkət bildirən söz kimi işlənə bilməz.






**9** Hansı şəkli adlandırmaq üçün çoxluq bildirən şəkilçidən istifadə etmək lazımdır?






**10** Konkret say bildirməyən sözləri cümlədə işlədib yazın.

| | | | |
|---|---|---|---|
| bir | onlarla | əlli | çoxlu |
| az | yüzlərlə | bir az | xeyli |
| iki | altı | yüz | bircə |

**11** Fikirlərdən biri doğrudur.

**a)** Varlığın nə qədər olduğunu bildirən sözlər say bildirən sözlərdir.
**b)** Hərəkət bildirən sözlər ***kim?*** sualına cavab verir.
**c)** Varlığın sayını bildirən sözlər ***kim?*** sualına cavab verir.

# NƏZAKƏTLİ SÖZLƏR



Müəllim bu günkü dərsimizin nəzakətli sözlər olduğunu söylədi. Mən diqqətlə müəllimə qulaq asırdım ki, bu hansı sözlərdir?

Müəllim dedi:

– Ünsiyyət zamanı, görüşərkən, ayrılarkən, müraciət edərkən, təşəkkür edərkən və ya təbrik edərkən işlətdiyimiz sözlər nəzakətli sözlər adlanır. İndi hər biriniz mənə bir nəzakət bildirən söz deyin, dedi.

Bütün şagirdlərin əlləri havaya qalxdı: "Buyurun", "zəhmət olmasa", "təşəkkür edirəm", "çox sağ olun", "xoş gəlmisiniz" ...

Bu dərs mənə çox asan gəldi. Çünki mən ailəmdə, məktəbdə və həyatda belə sözlərdən istifadə edirəm.

**1** Suallara cavab verin.

- Dərsin adı necə idi?
- Nəzakət bildirən sözlər nə zaman istifadə olunur?




**2** Qonaq qarşılayarkən hansı sözlərdən istifadə edirsiniz?

xoş gəlmisiniz | zəhmət olmasa | təbrik edirəm

**3** Cümlələri tamamlayıb oxuyun.

1. Zəhmət ... qapını açın.
2. Lalə ... əyləş.
3. İşimə dəyər verdiyiniz üçün sizə ... edirəm.
4. Siz bizim məktəbə ... gəlmisiniz.

**4** Şəkillərdə hansı nəzakət bildirən sözlərdən istifadə oluna bilər?





**5** Şəkillərdən istifadə edərək cümlələri tamamlayıb yazın.

1. Zəhmət olmasa, mənə  verin.
2. Buyurun,  götürün.
3. Ata, xahiş edirəm, mənə  al.
4. Mənə  aldığın üçün çox sağ ol.

**6** Verilmiş sözlərin cümlədə işlədin.

komanda →
kollektiv →
saqqal →
müəllim →
mürəkkəb →
səkkiz →

**Xatırlayın**

Deyilişi və yazılışı fərqlənən sözlər:
*şaftalı* – yazılır,
*şafdalı* – deyilir.

**7** Buraxılmış hərfləri əlavə edib yazın. Sözlərin tələffüzünə diqqət yetirin.

ar..ud to..qa ayaq..abı bulu..
dör.. tün.. dəs..ə is..i
us..a uldu.. həf..ə qana..

**8** Hansı düzgündür?

| | | |
|---|---|---|
| iyid – igid | əgri – əyri | düymə – dügmə |
| niyaran – nigaran | ögüd – öyüd | zigil – ziyil |

# QOHUMLAR

Yay tətilini səbirsizliklə gözləyirdik. Tətildə hara gedəcəyimizi atamdan soruşanda belə cavab verdi:

– Kəndə, qohumları ziyarət etməyə.

Qohumlar sözü mənə çox maraqlı gəldi.

– Ata, qohumlar kimlərdir? – deyə soruşdum.

– Atanın, ya ananın anası – nənə
Atanın, ya ananın atası – baba
Atanın qardaşı – əmi
Ananın qardaşı – dayı
Ananın bacısı – xala
Atanın bacısı – bibi ...



Beləcə bütün qohumlar haqqında atam məlumat verdi. Bundan sonra tətilin başlamasını daha da çox istədim. Çünki həm bütün qohumları görəcəyəm, həm də kənddə dincələcəyəm.

**1** Suallara cavab verin.



- Qohumlar kimlərdir?
- Sən qohumlarını tanıyırsan?




**2** Qohumluq bildirən sözləri əlavə edib cümlələri tamamlayın.




1. Atamın qardaşı Fuad ... gəmidə çalışır.
2. Zəhra ... anamın anasıdır.
3. Atamın bacısı Firuzə ... bizə gəlmişdi.
4. Anamın bacısı, Kəmalə ... həkimdir.
5. Atamın atası Zöhrab ... müharibədə iştirak edib.

**3** Sualları sözlərlə əvəz edib oxuyun.

**1.** Xalam xalça ***(nə edir?)***
**2.** Babam ağac ***(nə edir?)***
**3.** Atam sabah işə ***(nə edəcək?)***
**4.** Əmim dünən bizə ***(nə etmişdi?)***

**4** Şeiri mahnı ilə oxuyun. Hər sətirdə neçə heca var?

### Cücələrim

Cip-cip cücələrim,
Cip-cip, cip-cip cücələrim.
Nə yesəniz mən verərəm,
Su verərəm, dən verərəm.

***Tofiq Mütəllibov***

**Xatırlayın**

***Heca*** – sözün asanlıqla bölünən hissəsidir.

**5** Hansı sütundakı sözlər hecalara düzgün ayrılmayıb?

| | | |
|---|---|---|
| avt-obus | ar-mud | nə-za-kət |
| z-əh-mət | a-na-nas | ar-zu |
| kələ-m | çi-yə-lək | xə-yal |

**6** Heca sayına görə şəkilləri ardıcıl adlandır.



**7** Sətirdən sətrə keçirilməsi mümkün olmayan sözləri seçib yazın.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| ata | dünya | Azərbaycan | iki | balta | beş | Bakı |
| həyat | üç | düşmən | qoz | söz | qarışqa | zanbaq |
| ailə | ulduz | kainat | günəş | ana | xala | nənə |

# SEVİRƏM YAYI MƏN



Gün qızır, bürkü düşür,
Düzən yerlərə yayda.
Köynəksiz gəzirik biz,
Çimirik, göldə, çayda.

* * *

Yayda gəzməyə çıxıb,
Qonaq getsən bağlara,
Baxsan göy budaqlara,
Hər cür meyvə görərsən,
İlin bu vaxtında sən.

* * *

Fəsillərin içində
Çox sevirəm yayı mən.
Heç nəyə dəyişmərəm
Yaydakı üç ayı mən.

***Həmid Abbaszadə***

**1** Suallara cavab verin.



- Şeirin müəllifi kimdir?
- Şeirdə neçə misra var?
- Şeirdəki fikirləri öz sözlərinizlə ifadə edin.



**2** Şəkildə gördükləriniz haqqında fikirlərinizi söyləyin.



**3** Yay fəslinin ayları hansılardır.

| | | | |
|---|---|---|---|
| iyun<br>iyul<br>avqust | dekabr<br>yanvar<br>fevral | mart<br>aprel<br>may | sentyabr<br>oktyabr<br>noyabr |

**4** Şeirin son iki misrası haqqında siz necə danışmaq istərdiniz?

**5** Şeirdə eyni saitdən ibarət olan sözləri seçib yazın.

**6** Şeirdə altından xətt çəkilmiş sözləri cümlədə işlədib yazın.

**7** Şəkillər şeirin hansı bəndlərinə aiddir?





**8** "?" işarəsinin yerinə hansı söz olmalıdır.

yaylıq – lıq **+** daraq – raq **=** ? isti olur.

**9** Verilmiş sözləri cədvəl üzrə qruplaşdırıb yazın.

*yay, isti, meyvə, çimərlik, sevirəm, göl,*
*çay, gəzirik, köynək, bürkü, baxsan.*

| ad bildirən | əlamət bildirən | hərəkət bildirən |
|---|---|---|
| | | |

**10** Əlamət bildirən sözləri aid olduğu sözlərlə uyğunlaşdırıb yazın.

| | |
|---|---|
| soyuq | çay |
| şirin | hava |
| dadlı | meyvələr |

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Mövzular sizə nə öyrətdi?

Nəzakətli sözlər

Qohumlar

Yayı sevirəm

**2** Hansı fikir doğru deyil?

**1.** Qonaq qarşılayarkən nəzakətli sözlərdən istifadə edilir.
**2.** Ad günü təbriklərində "buyurun" ifadəsindən istifadə edilir.
**3.** Ayrılarkən "sağ olun, sağlıqla qalın" ifadəsi işlənir.

**3** Hansı sözlər həmişə böyük hərflə yazılır?

əmi babək xala kanada

göy göl bibi nənə timsah

tərlan dayı türkiyə qəbələ xaçmaz

füzuli baba saat otaq

arzu çiçək səadət taleh

**4** Şeiri davam etdir.

Yayda gəzməyə çıxıb,
Qonaq getsən bağlara.

**5** Durğu işarələrinin adını yazın. Hansının adında qoşa sait varsa, altından xətt çəkin.

, ? . !

**6** Mətni oxuyun. Ad və hərəkət bildirən sözləri seçib yazın.

Ülviyyə ilə Təranə bütün yayı nənəsinin yanında, kənddə keçirdilər. Onlar payızda şəhərə qayıtdılar. Qış gəldi. Havalar soyudu. Şaxtalar düşdü. Uşaqlar isti paltarlarını geyindilər.

Bir gün kiçik bacı Ülviyyə Təranəyə soyuqdan gileylənib dedi:

– Mən nənəmgilə getmək istəyirəm. Nənəmgilin kəndinin günəşi böyükdür, istidir.

**7** Mətnin sonuncu cümləsini necə başa düşdüz? Ülviyyə nə demək istəyirdi?

**8** Ülviyyənin bacısı olsaydınız, ona necə cavab verərdiniz?

**9** Əlamətlərini deyin.






**10** Sözləri köçürün. Qarşısından suallarını yazın.

***Nümunə:*** *qaçdı – nə etdi?*

| | | |
|---|---|---|
| qaçdı – | keçəcək – | soyundu – |
| oxuyur – | atır – | geyindi – |
| acı – | meyxoş – | Tahir – |
| isti – | hirsli – | Lalə – |

# YAYDA



Allı-güllü yaz qurtardı. Qızmar yay gəldi. Yayda bağlarda, baxçalarda bol meyvə, tarlalarda bol tərəvəz, taxıl, pambıq yetişir. Hər yerdə böyük canlanma olur. Yay həm də insanların istirahət etmələri üçün əlverişli fəsildir. Yayda məktəblilər düşərgələrdə dincəlir, dənizdə, çayda çimir, gəzintiyə gedirlər. İnsanlar yaylaqlarda, istirahət evlərində istirahət edirlər.

**1** Suallara cavab verin.



- Yayda hava necə olur?
- Yay fəslinin ayları hansılardır?
- Yayda məktəblilər nə edir?




**2** Siz yay tətilini necə keçirəcəksiniz? Fikirlərinizi bir-iki cümlə ilə ifadə edib yazın.



**3** Fikirlərdən biri yanlışdır.





1. Yayda mətnində yeddi cümlə var.
2. Cümlə səslərdən yaranır.
3. Cümlə bitmiş bir fikri ifadə edir.
4. Cümlə böyük hərflə başlayır.

**4** Cümlələri köçürün. Cümləyə uyğun olan durğu işarəsini yazın.

1. Sən yayda hara gedəcəksən
2. Yayda hava necə olur
3. Mən tətildə maraqlı kitab oxudum
4. Dostlarım düşərgəyə getdilər

**5** Şeiri köçürün. Nəzakət bildirən sözlərin altından xətt çəkin.

### Balaca Günəş

Yuxudan duran kimi
Hamıya gülümsəyir:
– Ata, sabahın xeyir,
– Ana, sabahın xeyir!

Yeddi yaşlı Günəşdən
Qəm qorxur, qüssə qaçır.
O, balaca günəştək
Ətrafına nur saçır.

***Mina Rəşid***

**6** Sualları cavablandırın.

1. Şeirdə kimdən söhbət açılıb?
2. Şeirin ikinci bəndində günəş sözləri biri böyük, biri kiçik yazılıb. Səbəbini izah edin.
3. "Qaçır" sözü əlamət bildirir, yoxsa hərəkət?

**7** Şəkildə gördükləriniz haqqında danışın.






# UŞAQLARIN BAYRAMI

Gəlmiş güllə, çiçəklə,
Uşaqların bayramı.
Onları şad ürəklə
Təbrik eyləyir hamı.

* * *

Uşaqların şən səsi
Qalxır ulduza, aya.
Sülh, azadlıq nəğməsi
Yayılır bu dünyaya.

* * *

Ay körpələr, oyanıb
Gülün beşiyinizdə.
Doğma Vətən dayanıb
Sizin keşiyinizdə.



***Xanımana Əlibəyli***

**1** Suallara cavab verin.







- Şeir neçəbənddən ibarətdir?
- Şeirdə neçə misra var?
- Şeirin müəllifi kimdir?

**2** Şeirdəki fikirləri öz sözlərinizlə ifadə edin.



**3** Sözləri köçürün. Saitlərin altından xətt çəkin.



| | | | |
|---|---|---|---|
| gül | çiçək | bayram | ürək |
| şad | təbrik | hamı | uşaqlar |
| şən | qalxır | ulduz | ay |
| sülh | azadlıq | nəğmə | dünya |
| körpə | beşik | doğma | vətən |

**Unutmayın**

1 İyun ***Uşaqların Beynəlxalq Müdafiəsi günüdür.***

**4** Şəkildə gördüklərinizdən hansı şeirdə yoxdur?



**5** Cədvəldə gizlənmiş sözləri tapın və yazın.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| u | l | d | u | z | | | |
| | | | ş | a | r | | |
| | | p | a | p | a | q | |
| | | | q | ə | l | ə | m |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| b | a | b | a | | | | |
| | | a | | | | | |
| b | a | y | r | a | q | | |
| | | r | | | | | |
| a | z | a | d | | | | |
| | | m | i | l | l | ə | t |

**6** Şeirdə əlamət bildirən sözləri seçib yazın.

**7** Şeirdə altından xətt çəkilmiş sözləri hansı sözlə əvəz etmək olar?

göylərə | uca səmaya | günəşə

**8** Dördüncü sinifdə özün üçün dərslərində hansı işləri planlamısan? Fikirlərinizi bir neçə cümlə ilə yazın.

**9** Hansı şəkil yay tətilini xatırladır?







# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Suallara cavab verin.



**1.** Əlifba nədir?
**2.** Azərbaycan əlifbasında neçə hərf var?
**3.** Dilimizdə neçə səs var?
**4.** Hərflər neçə yerə bölünür?
**5.** Dilimizdə neçə sait və samit səs var?

**2** Sözləri oxuyun.



| | | | | |
|---|---|---|---|---|
| radio | barmaq | dost | şənbə | palıd |
| kitab | tısbağa | qatar | oktyabr | sabun |
| neftçi | şagird | səma | rəndə | şaxta |
| dovşan | guşə | dünya | zənbil | nömrə |

**3** Sait hərfləri seçib yazın.



a z t e i j n u d r ə ö o l ü m

**4** Samitlə başlayıb samitlə bitən şəkil adlarını seçib yazın.











8













**5** Şəkildə gördüklərinizi adlandırın. Hər sözdə neçə səs və neçə hərf var?





| | | |
|---|---|---|
| a | r | ı |



| | | | |
|---|---|---|---|
| c | ü | c | ə |



| | | | | |
|---|---|---|---|---|
| q | ə | l | ə | m |



| | |
|---|---|
| i | t |



| | | | |
|---|---|---|---|
| i | n | ə | k |

# SƏS, HƏRF, SAİT VƏ SAMİT. HECA

**6** Oxuyun. Şeirdə *[r]* və *[ş]* səslərini aydın tələffüz edin.





## Uşaq və buz

Dərsə gedən bir uşaq,
Çıxdı buz üstə qoçaq.
Sürüşdü birdən-birə
Dəydi üz üstə yerə.
Uşaq durub neylədi?
Buza belə söylədi:
– Sən nə yamansan, a buz.
Adam yıxansan, a buz.
Az qalıb, ömrün sənin,
Yaz gələr, artar qəmin.
Əriyib, suya dönərsən,
Axıb, çaya gedərsən.

***Mirzə Ələkbər Sabir***

**7** Köçürün. Qoşa verilmiş sözləri fərqləndirən hərflərin altından xətt çəkin.



- quru – duru
- qələm – kələm
- stol – stul
- köz – göz
- aş – as
- qala – qaya
- qur – gur
- kəs – küs
- oraq – oyaq
- kiçik – küçük

**8** Eyni saitdən ibarət olan sözləri yazın.



***Nümunə:*** *üzüm, adam, iri, ələk.*

**9** Sözləri hecalarla oxuyun.



| | | | | |
|---|---|---|---|---|
| anbar | bostan | camaat | çaqqal | dövr |
| düymə | göyərçin | xoruz | iyirmi | kərpic |
| qrip | ləzzətli | mağaza | pendir | tüstü |

**10** Təkrar hecalardan yaranan sözləri seçib yazın.



| | | | | |
|---|---|---|---|---|
| Tərtər | bibi | ulduz | bərbər | lələk |
| lalə | kükü | ləpə | bülbül | Tutu |
| pətək | baba | nənə | dədə | Nəbi |

**11** Sözləri oxuyun. Bu sözləri nə üçün sətirdən sətrə keçirmək olmur?



ana oxu uzun iki baş

beş uca ütü inək üzüm

Anar Arif Əli öküz əla

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Mətni oxu. Mətnin davamını şəkillərlə davam etdirin.



İnsanlar qidalanmada ərzaq kimi bir sıra bitkilərdən istifadə edirlər. Onlardan dənli bitkilər çoxluq təçkil edir: buğda, çəltik, qarğıdalı, arpa, darı, çovdar, yulaf.




**2** Xatırlayın.



| *Yazılır* | *Deyilir* |
|---|---|
| dəftər | dəfdər |
| həftə | həfdə |
| dəstə | dəsdə |

| *Yazılır* | *Deyilir* |
|---|---|
| ailə | ayilə |
| şaiq | şayiq |
| radio | radiyo |

**3** Buraxılmış hərfləri əlavə etməklə köçürün.



palı.. əri.. kən.. Əsə..

eşi.. öyü.. bən..

kür.. igi.. quru.. sü..

**4** Hansı fiqurun səslənməsi zamanı sözdə səs artımı baş verir?





**5** Deyilişi və yazılışı fərqli olan şəkilləri göstərin.
















# SÖZLƏRİN DEYİLİŞİ VƏ YAZILIŞI

**6** Sözləri oxuyun. K hərfinin fərqli tələffüz olunduğuna diqqət yetirin.



| | | | |
|---|---|---|---|
| kələm | komandir | kəklik | konfet |
| kəpənək | kosmos | kükü | kolbasa |
| kirpi | kartof | Kənan | tank |

**7** Ardıcıllığı tamamlayın.



kirpi → kombayn → külək → kassa → ______

kələm    kosmos

**8** "o" saitinin "a" kimi tələffüz olunduğu sözləri seçib yazın.



| | | |
|---|---|---|
| komandir | qoğal | zavod |
| komediya | kol | komanda |
| kino | pomidor | radio |

**9** Buraxılmış hərfləri əlavə etməklə köçürün.



Çörək neçə-neçə p..şə sahibinin əmə..i ilə başa gəlir.

Çörə..in qədrini bi..in.

**10** Sözləri oxuyun. Yadda saxlayın.



| *Yazılır* | *Deyilir* |
|---|---|
| zənbil | zəmbil |
| sünbül | sümbül |
| günbəz | gümbəz |
| tənbəl | təmbəl |

| *Yazılır* | *Deyilir* |
|---|---|
| anbar | ambar |
| şənbə | şəmbə |
| dinməz | dimməz |
| çərşənbə | çərşəmbə |

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Verilmiş sözləri cümlədə işlədib yazın.



şagird kitab yay

həkim maşın

**2** Oxuyun. Hər sütundakı sözləri bir sözlə necə ifadə edə bilərsiniz?



- alma, heyva, banan, ərik
- şir, canavar, ayı, fil
- yasəmən, lalə, nərgiz, çobanyastığı
- sərçə, qarğa, qaranquş, qartal

**3** Şəkillərə baxın. Hər şəklə uyğun kiçik mətn qurub danışın.






Uşaqlar yolu
keçmək üçün ... .



Fərid və Mədinə
çöl quşları üçün ... .

4 Verilmiş sözlərdən istifadə edərək cümlələr qurun.



- uçub, qondu, qartal, dağın zirvəsinə.
- müayinə, etdi, həkim, xəstəni.
- yarışda, oldular, qalib, idmançılarımız.

5 Sözləri cədvəl üzrə qruplaşdırıb yazın.



*həkim, armud, üçbucaq, qələm, bənna, alma, dairə, kitab, dərzi, kvadrat, kivi, çanta.*

***Nümunə:***

| məktəb ləvazimatı | meyvə | peşə | həndəsi fiqur |
|---|---|---|---|
| *qələm* | *armud* | *həkim* | *üçbucaq* |

6 Verilənlərdən hansı atalar sözü deyil?





- O yanı qaya, bu yanı qaya içində sarı maya.
- El gücü, sel gücü.
- Böyüyün sözündən çıxan xeyir tapmaz.
- Çörəyi ver çörəkçiyə, birini də üstəlik.
- Güc birlikdədir.

# ÜMUMİLƏŞDİRİCİ TƏKRAR

**1** Mətni oxuyun. Mavi rəngdə verilmiş sözləri cümlədə işlədib yazın.




Məktəbin üzgüçülük hovuzu təmiz su ilə doldurulur. Qışda hovuzdakı su qızdırırlar. Suyun hərarəti otağın hərarətinə bərabər olur. Uşaqlar ilk dəfə suda beş dəqiqə qalırlar. Onlar sudan çıxıb qurulanırlar. Üzməyi öyrənən uşaqlar yarışlarda iştirak edirlər.

**2** Verilmiş sözlərdən istifadə edərək cümlələri tamamlayıb oxuyun.



Xatirə → ... → oxuyur.
Xatirə → ... → oxuyur.

Kənan → ... → yazır.
Kənan → ... → yazır.

Tahirə → ... → qaçdı.
Tahirə → ... → qaçdı.

***kitab, mahnı***

***məktub, misal***

***həyatə, yola***

**3** Şeirdəki fikri izah edin.



## Sərçə

O yedi, doydu qaçdı,
Birdən itdi gözümdən.
Bəs o balaca sərçə
Hara getdi gözümdən?



***Teymur Elçin***

**4** Hansı fikir düz deyil?




- *Alma, xiyar, qələm* sözləri ***nə?*** sualına cavab verir.
- *Telefon* sözü dörd hecalıdır.
- *Qaçır, gedir, yazır* sözləri ***nə edir?*** sualına cavab verir.

**5** Şəkildə gördüyün əşyalardan nə üçün istifadə edirlər?











**6** Nöqtələrin yerinə uyğun gələn hərfləri əlavə edib sözləri köçürün.



us..a qara..quş qəhr..man xət..eş

ma..al tele..on toz..oran

müəl..im sa..un fin..an qə..əm

bul..q yağ..ş çob..n

BURAXILIŞ MƏLUMATI

*Xüsusi məktəblərin*
*3-cü sinifləri üçün sadələşdirilmiş proqram əsasında hazırlanmış*
*Azərbaycan dili fənni üzrə dərslik*
*II hissə*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Aygün Qasımova** |
| | **Farizə Nəbiyeva** |
| | **Yeganə Məmmədəliyeva** |
| | **Həbib Kərimov** |
| | **Könül Doxolova** |
| | **Süleyman Kərimov** |
| Layihə rəhbəri | **Rəhilə Soltanqızı** |
| Dizayner | **Cəmilə Məmmədova** |
| Texniki redaktor | **Ruslan Mahmudov** |
| Rəssam | **Anara Hüseynova** |
| Korrektor | **Kəklik Məmmədova** |

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2023-016**



Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab nəşriyyat həcmi: 9.3. Fiziki çap vərəqi 13. Səhifə sayı 104.
Kəsimdən sonra ölçüsü: 220x275.
Kağız formatı 70x100 $^{1}/_{16}$. Ofset kağızı. Ofset çapı.
Şriftin adı və ölçüsü: Cambria, 14-18 pt.
Sifariş . Tiraj: . Pulsuz. Bakı - 2023

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: . .2023**

Çap məhsulunu hazırlayan:

**Çaşıoğlu Eİ MMC -** Bakı ş., M. Müşfiq küç., 2 A.

Çap məhsulunu istehsal edən: